# 2023 "Heydər Əliyev ili" elan edildi

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 212 (9091) CÜMƏ, 30 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev ili" elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*

# Əbədiyaşar LİDER

**Dünyanın ən aparıcı dövlətlərinin tarixində onları sınağa çəkən, inkişaf yolunda maneəyə çevrilən hadisələr az olmamışdır. Bu zaman öz xalqını qoruyan, onu firavan inkişaf yoluna çıxarmağa müvəffəq olan şəxsiyyətlər tarixdə qalırlar. Belə şərəfli ömür yolu keçmiş, yaddaşlarda əbədiyaşarlıq qazanmış şəxsiyyətlərdən biri də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir.**

2023-cü ildə anadan olmasının 100 illiyini təntənə ilə qeyd edəcəyimiz dünyaşöhrətli siyasətçi, türk millətinin dəyərli öndəri olan Heydər Əliyev üzərinə götürdüyü bütün missiyalarda hər zaman millətinə inkişaf, sabitlik, böyük uğurlar qazandırıb. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, böyük siyasətçi Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetirdiyi nadir dahi şəxsiyyət, tariximizin canlı əfsanəsidir.

Ulu Öndər Heydər Əliyevin siyasi karyerası Naxçıvan Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri, daha sonra dövlət təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdə çalışdığı illərdə diqqətçəkən olmuşdur. 1969-cu ildə isə onun taleyinə Azərbaycana rəhbərlik etmək missiyası düşmüşdü. Onun sayəsində qısa zaman kəsiyində respublikamız sənaye və kənd təsərrüfatı ölkəsi kimi ittifaq miqyasında ən qabaqcıl dövlətlərdən birinə çevrildi.

→ 2

# Şuşaya 10-cu səfər



## İlham Əliyevin diqqəti və qayğısı ilə Azərbaycanın mədəniyyət paytaxtı sürətlə dirçəlir

→ 3

# Prezident İlham Əliyev Fransa Prezidenti Kabinetinin müşavirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu qəbul edib.



AZƏRTAC xəbər verir ki, görüşdə Fransa Prezidenti Emmanuel Makronla Azərbaycan Prezidenti İlham Əliyev arasında son dövrlərdə telefon danışıqları əsnasında aparılmış müzakirələr və konstruktiv dialoq qeyd olundu.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar prosesi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın üzləşdiyi mina problemi və Birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 4000 nəfərə yaxın Azərbaycan vətəndaşının itkin düşmüş hesab edildiyini vurğuladı. Bu məsələlərin həllinin vacibliyi qeyd edildi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən Azərbaycan-Fransa ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu.

# Heydər Əliyev Mərkəzində "Dünya xəzinələri - Azərbaycan" filminin təqdimatı olub

→ 7



# Heydər Əliyev ili 2023



# Əbədiyaşar LİDER

Əvvəli 1-ci səh.

Ulu Öndər Heydər Əliyevin pozitiv keyfiyyətləri, dövləti və cəmiyyəti idarəetmə bacarığı o qədər məmnunluq doğurdu ki, 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd seçildi, 1982-ci ildə isə Siyasi Büronun üzvü kimi Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə qədər yüksəldi. O dövrün siyasi reallıqları ilə müqayisədə azərbaycanlı üçün bundan böyük status ola bilməzdi, Heydər Əliyev bu statusa layiq görüldü. Beləliklə, SSRİ-nin xəritəsində adı, ərazisi böyük olmayan Azərbaycanın mövqeləri əvvəlcə Kremldə, daha sonra isə bütövlükdə sovet məkanında möhkəmləndi. Sovet İttifaqının coğrafi xəritəsində artıq respublikamızın da yeri böyümüşdü.

Ulu Öndər Heydər Əliyevin bu çevrədə güclü şəxsiyyət imicini özündə daşıması Azərbaycanı separatçı ssenarilərdən, işğal planlarından uzun müddət hifz etdi. Ümummilli Lider nə qədər ki Nazirlər Sovetində öz vəzifəsinin icrasını davam etdirirdi, keçmiş ittifaqın rəhbərliyi Qarabağla, bütövlükdə Azərbaycanla bağlı destruktiv planlarını həyata keçirə bilmirdi. Onu şəxsiyyətinə görə Moskvaya dəvət edənlər, elə şəxsiyyət faktoruna görə də ondan ehtiyat edirdilər. Böyük şəxsiyyəti Dağlıq Qarabağın qorunmasında keçilməz zireh olan Heydər Əliyev elə Dağlıq Qarabağa görə də "vurulmaq" aqibəti ilə qarşı-qarşıya qoyuldu. O, Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi, amma təqaüdə hazırlaşmadı...

Çox keçmədi ki, xalqın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə gələn Heydər Əliyev müstəqilliyini yenicə bərpa edən kövrək Azərbaycanı sonu məlum olmayan, çox qorxunc siyasi böhranın, vətəndaş müharibəsinin caynağından qopartdı. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanın bütövlüyünə, inkişafına xidmət edən bir amil oldu. Heydər Əliyev idarəçilikdə, siyasi proseslərdə, daxili və beynəlxalq miqyasda böyük uğurlar qazandı. Enerji layihələri, neft-qaz strategiyası tarixə onun adı ilə düşdü. Dünyanın nüfuzlu neft şirkətləri əvvəlcə Azərbaycana yatırımlar qoymağa tərəddüd edirdilər. Yalnız Heydər Əliyevin güclü siyasi iradəsindən sonra neft şirkətləri, bütövlükdə beynəlxalq aləm ölkəmizə meyilləndi. 1994-cü ildə "Əsrin müqaviləsi" Azərbaycanda təntənə ilə imzalandı. Neft Azərbaycanın milli təhlükəsizlik faktoruna çevrildi.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratdı.

Azərbaycanda demokratik inkişaf prosesinin sürətli dövrü, bu istiqamətdə gərəkli olan bütün addımların atılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkənin Avropa Şurasına üzvlüyü, bu qurum qarşısında götürülən öhdəliklərin yerinə yetirilməsi, siyasi partiyaların, mətbuatın inkişafı, qanunların Avropa standartlarına uyğunlaşdırılması Azərbaycanda demokratiyanın bərqərar olmasını sübuta yetirdi.

Ulu Öndər Heydər Əliyevin siyasi təfəkküründə, analitik düşüncəsində iqtisadi resurslar, ilahidən gələn möcüzəvi nemətlər Azərbaycanın siyasi müstəqilliyinin möhkəmlənməsi, xarici müdaxilələrdən qorunması, dünyaya çıxması, özünü tanıtması, sayılan-seçilən respublikaya çevrilməsi üçün çox böyük amil idi. Böyük İpək yolunun açılması istiqamətində addımların atılması, Bakı-Ceyhan neft kəmərinin çəkilməsi, digər qlobal strateji layihələrə imza qoymaq kimi məsələləri Heydər Əliyev Azərbaycanın siyasi müstəqilliyinin qorunmasında təsirli bir vasitəyə çevirdi. Ulu Öndərin möhürünü vurduğu iqtisadi layihələrdən bu gün Azərbaycan təkcə maddi qazanc götürmür, sosial siyasətini möhkəmləndirmir, həm də dünya siyasətinin müəyyənləşməsində iştirak edir.

Heydər Əliyevin Azərbaycanın milli maraqlarına zidd olan heç bir sənəddə imzası olmadı. Ümummilli Liderin müəyyənləşdirdiyi siyasi xətt özündən sonra da uğurla davam etdirilir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti nəticəsində Ulu Öndərin də vəsiyyəti yerinə yetirildi, Qarabağ münaqişəsinə birdəfəlik son qoyuldu.

Ümummilli Liderin dünya siyasətinə güclü təsiretmə nüfuzu var idi. Hər siyasət adamında olmayan yüksək keyfiyyətləri daşıyır, siyasi reallıqlara düzgün yanaşma məharəti, sinəsinə döyən bəzi opponentlərini öz rasional qərarları, düzgün addımları sayəsində məğlubetmə bacarığı ilə hamını heyran qoyurdu. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən haldır. Ulu Öndər bütün sahələrdə idarəetmənin ustadı və siyasətin kamil bilicisi idi. Yaşadığımız siyasi reallıqlar sübut edir ki, dünyaşöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyev zəngin dövlətçilik təcrübəsi olan, xilaskar, nüfuzlu, güclü xarizmatik və fenomen lider kimi xalqımızın qəlbində əbədi yaşayacaq.

**"AZƏRBAYCAN"**

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 510-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151; 2021, № 12, maddə 1398) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 3.0.16-cı yarımbəndə birinci halda "dövlət" sözündən əvvəl "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin.
2. 3.0.45-ci yarımbəndə "sağlamlaşdırılması," sözündən sonra "sahibkarlığa dövlət köməyinin, o cümlədən" sözləri və "mühafizəsi," sözündən sonra "Xidmətin maddi-texniki bazasının möhkəmləndirilməsi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*

## Azərbaycan Ordusunun Baş Qərargah rəisi Gürcüstanda Milli Təlim və Tədris Mərkəzində olub



Gürcüstanda rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 29-da Tbilisi yaxınlığındakı Krtsanisi Milli Təlim və Tədris Mərkəzində olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinə mərkəzin tarixi və fəaliyyəti barədə geniş brifinq təqdim edilib. Sonra nümayəndə heyəti "Delta" Elmi Hərbi-Texniki Mərkəzini ziyarət edib. Mərkəzdə istehsal edilən hərbi texnika və avadanlığa baxış keçirilib, hərbi-texniki əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

Sentyabrın 29-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili iclasın gündəliyinə 3 məsələnin daxil edildiyini söyləyib.

"Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" yeni qanun layihəsinin müzakirəsi zamanı Tahir Mirkişili deyib ki, Azərbaycanda sahibkarlığın inkişafı dövlət başçısının iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Sahibkarlığın inkişafında mikro, kiçik və orta sahibkarlığın xüsusi rolundan danışan komitə sədri bu sahədə görülən işlərin əhəmiyyətini qeyd edib. Bildirib ki, ötən müddət ərzində sahibkarlığın dəstəklənməsi istiqamətində həm dövlət, həm də Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən lazımi addımlar atılıb. Sahibkarlara güzəştli kreditlər verilib, subsidiyalar ayrılıb, yeni iş yerlərinin açılmasına şərait yaradılıb. Komitə sədri "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda kiçik və orta sahibkarlıq üçün göstərilən hədəflərdən söhbət açıb. Bu hədəflərə nail olmaqda həm KOBİA-nın, həm də yeni qanunun önəmli rolundan danışıb. O, qanun layihəsinin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olduğunu deyib. Sənədin bu sahənin tənzimlənməsi və inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

İclasda iştirak edən iqtisadiyyat nazirinin müşaviri Niyazi Səfərov bildirib ki, dünyada baş verən böhrana baxmayaraq, ölkəmizdə sabit və davamlı inkişaf təmin edilir, mənfi iqtisadi maliyyə təsirlərinin qarşısı alınır, müsbət iqtisadi və sosial inkişaf dinamikası müşahidə olunur. Artıq müasir çağırışlara cavab olaraq yeni strateji kursun icrasına başlanılıb. Ölkəmizdə daha güclü, diversifikasiya olunmuş və dinamik iqtisadiyyatın inkişaf etdirilməsi ilə bağlı genişmiqyaslı işlər görülməkdədir. İqtisadi inkişafın təmin edilməsində xüsusi rol oynayan kiçik və orta biznes subyektləri bu proseslərin həyata keçirilməsində mühüm töhfələr verə bilərlər.

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışında deyib ki, Azərbaycanda KOB-ların mövcud potensialını nəzərə alaraq onların imkanlarından istifadə olunması mühüm əhəmiyyət kəsb edir. O, təqdim edilən qanun layihəsinin vacibliyini qeyd edərək sahibkarların öz fəaliyyətlərində ondan lazımınca yararlanacağını söyləyib. Kiçik və orta biznes subyektlərinə dəstək mexanizmlərindən bəhs edib. Bildirilib ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkə iqtisadiyyatında KOB-ların payının artırılması istiqamətində layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Bu çərçivədə mövcud dəstək mexanizmlərindən istifadə edən KOB-ların əhatə dairəsinin genişləndirilməsi, yeni daha səmərəli ünvanlı dəstək mexanizmlərinin tətbiqi ilə ölkədə mövcud biznes mühitinin inkişafı daha da sürətləndiriləcək.

Orxan Məmmədov təqdim olunan qanun layihəsinin hazırlanması prosesi barədə danışaraq bu sahədə beynəlxalq təcrübənin öyrənildiyini, layihə ilə bağlı ictimai müzakirələrin keçirildiyini, ekspert rəylərinin nəzərə alındığını diqqətə çatdırıb. Bildirib ki, müasir tələblərə cavab verən hüquqi tənzimləməni özündə ehtiva edən sənəd ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfəsini verəcək.

Sonra KOBİA İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" yeni qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, 5 fəsil, 15 maddədən ibarət olan qanun mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində münasibətləri tənzimləyir, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqinin forma və metodlarını müəyyən edir.

Sənəddə istifadə olunan əsas anlayışlar, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericilik, dövlət siyasətinin məqsədləri, prinsipləri və əsas istiqamətləri, sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin şərtləri, dəstəyin formaları, qaydaları, qiymətləndirilməsi və digər məsələlərlə bağlı maddələr təsbit olunub.

Layihəyə əsasən, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən səlahiyyətli qurumun yanında daimi fəaliyyət göstərən koordinasiya qrupunun yaradılması nəzərdə tutulub. Bununla yanaşı, səlahiyyətli qurum sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrini yaradır. Vahid reyestrin aparılması qaydası və həmin reyestrə daxil edilməli olan məlumatların siyahısı mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə ilə müəyyən edilir.

Təqdimatda qanunun qəbulundan sonra gözləntilər, onun icra mexanizmləri və uyğunlaşdırma ilə bağlı nəzərdə tutulan işlər barədə də məlumat verilib.

Müzakirələrdə çıxış edən Milli Məclisin komitə sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Ziyad Səmədzadə, Vüqar Bayramov, Rüfət Quliyev, Mahir Abbaszadə, Məşhur Məmmədov yeni qanun layihəsi barədə fikirlərini açıqlayıb, qeyd və təkliflərini səsləndiriblər. Qanunun ölkədə iqtisadiyyatın inkişafına xidmət edəcəyini bildiriblər. Deputatlar sahibkarlığın inkişafında KOBİA-nın rolundan bəhs ediblər.

İclasda iştirak edən KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) İdarə Heyətinin sədri Nigar Ələsgərova qanun layihəsinə münasibətlərini bildiriblər, ölkədə sahibkarlara yaradılan şərait, onların dəstəklənməsi istiqamətində atılan addımları yüksək qiymətləndiriblər.

Müzakirələrin sonunda "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda komitə sədri Tahir Mirkişili "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında məlumat verib. Diqqətə çatdırılıb ki, layihədə qanunun 2-ci maddəsinin 1-ci hissəsində "Azərbaycan Respublikasının Qanunu" sözləri "və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının qanunları" sözləri ilə əvəz edilir.

Tahir Mirkişili həmçinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyətindən danışıb. Bildirilib ki, layihədə qanunun 6-cı maddəsinin "Ödənişlər" adlandırılması təklif olunur. Bununla yanaşı, yeni 6.4-cü maddənin əlavə edilməsi nəzərdə tutulub. Əlavəyə əsasən, daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi, daşınmaz əmlakın hüquq sahibi, təsviri və ünvanı barədə dövlət reyestrindən məlumatların verilməsi, sxematik ünvan planlarının tərtibi, hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsi, torpaq kadastr məlumatları və çöl-ölçmə işlərinin nəticələri əsasında torpaq sahəsinə dair mütəxəssis rəyinin verilməsi ilə bağlı göstərilən xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.

Bu qanun layihələri də birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Şuşaya 10-cu səfər

## İlham Əliyevin diqqəti və qayğısı ilə Azərbaycanın mədəniyyət paytaxtı sürətlə dirçəlir



Vətən müharibəsinin başa çatmasından ötən müddətdə Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün təsdiqidir. Qısa müddətdə nəhəng infrastruktur layihələrin icrasının başa çatdırılması torpaqlarımızın xilaskarı Prezident İlham Əliyevin böyük siyasi iradəsinin, yenilməz quruculuq əzminin təcəssümüdür. Torpaqlarımızı azad edən Müzəffər Ali Baş Komandan indi yurd yerlərimizə yeni həyat bəxş edir.

### Quruculuğun Şuşa zirvəsi

Ötən iki ilə yaxın müddətdə həyata keçirilən bərpa işləri işğaldan azad olunmuş bütün şəhər və rayonlarımızı əhatə edir. Görülən işlər isə məhdud sfera ilə kifayətlənməyərək, demək olar ki, bütün sahələri əhatə edir. Həm infrastrukturlar yaradılır, həm yaşayış massivləri inşa olunur, həm də bu ərazilərin iqtisadi potensialı hərəkətə gətirilir.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuğun əsas ünvanlarından biri də Şuşadır. Qarabağın tacı, mədəniyyətimizin paytaxtı sürətlə bərpa olunur, tarixi şöhrətini tədricən özünə qaytarır. Bu günlərdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə səfərləri bir daha göstərdi ki, Şuşa dirçəlir, yeniləşir.

Şuşanın bərpası istiqamətində işlər Vətən müharibəsinin başa çatmasından dərhal sonra başlayıb. İlk olaraq şəhərin enerji və su təchizatı təmin edilib, Şuşaya doğru Zəfər yolu salınıb. Ötən ilin yanvarında Şuşaya səfər edən Prezident İlham Əliyev özü ilə bərabər Bülbülün, Natəvanın, Üzeyir bəy Hacıbəylinin büstlərini gətirmişdi. 2021-ci il ərzində Şuşada Heydər Əliyev Fondu tərəfindən dahi Azərbaycan şairi və ictimai-siyasi xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri aparılıb. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli və dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyulub. Xalq artisti Bülbülün ev-muzeyi bərpa edilib. Qala divarlarında bərpa işləri aparılıb. Şuşadakı Rəsm Qalereyası, Xalçaçılıq Qalereyası da şəhərdə bərpa olunan binalar sırasında yer alır. Xarıbülbül" və "Qarabağ" hotelləri isə Şuşaya gələn qonaqların istifadəsindədir.

Bu il mayın 10-da "Azərişıq" ASC-nin Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli hadisədir.

### Dövlət başçısının hər səfəri Şuşanın həyatında dərin iz buraxır

Budəfəki səfər Prezident İlham Əliyevin Şuşanın azad olunmasından sonra şəhərə 10-cu gəlişi idi. Bu səfərlərin hər biri Şuşanın həyatında dərin iz buraxıb. Eyni zamanda bu səfərlərdə yeni ünvanların təməli qoyulub. Dövlət başçısının imzaladığı sərəncamlarla Şuşada həyata keçirilən layihələr maliyyələşdirilib. Məsələn, dövlət başçısının sərəncamları ilə Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi, şəhərin istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması, Şuşa Radio-Televiziya Yayım Stansiyasının layihələndirilməsi və tikintisi, mərkəzi xəstəxananın layihələndirilməsi və tikintisi, Şuşa Real Məktəbinin binasının layihələndirilməsi və bərpası, Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası ilə bağlı vəsaitlər ayrılıb.

Şəhərin Baş planı təsdiq olunub. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan birinci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar Şuşaya xas memarlıq üslubu ilə tikiləcək. İlk evlərin 2023-cü ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulur.

Bu səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa olunan yeni yaşayış kompleksində, hotel və konfrans mərkəzində, yenidən qurulan hoteldə, 1 saylı tam orta məktəbin binasında, Mehmandarovların malikanə kompleksində, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidmətinin inzibati binasında aparılan tikinti və bərpa işləri ilə, Şuşa rayonunda xüsusi nümayəndəliyin binasında yaradılan şəraitlə tanış olublar. Bütün bu layihələr göstərir ki, Şuşanın bərpası və yenidən qurulması kompleks xarakter daşıyır.

### Şəhər tarixi siması qorunmaqla bərpa olunur

Hələ ötən ilin əvvəlində Prezident İlham Əliyev Şuşanın bərpası ilə bağlı tapşırıqlarını verərkən demişdi: "Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol verməк olmaz".

Hazırda Şuşa böyük tikinti meydanını xatırladır. Şəhərin hər küçəsində bərpa və quruculuq işləri aparılır. Görünən odur ki, mədəniyyət paytaxtımızda bərpa işləri dövlət başçısının tapşırıqlarına uyğun olaraq şəhərin memarlıq xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir. Ümumilikdə Şuşanın tarixi simasının qorunması diqqət mərkəzində saxlanılır. Beləliklə, Şuşa Azərbayanın mədəniyyət beşiyi kimi tarixi ənənələrini bərpa edir, şəhərə həyat yenidən qayıdır, özü də yüksək səviyyədə.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# *Ceyhun BAYRAMOV:* "Ermənistan liderlər səviyyəsində götürdüyü öhdəlikləri yerinə yetirmir"

Sentyabrın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri İzabel Dümon ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanla Fransa arasında ikitərəfli siyasi və iqtisadi əməkdaşlıq məsələləri, Azərbaycanla Ermənistan arasında bölgədə yaranmış gərginlik və normallaşma prosesi istiqamətində zəruri addımlar müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistan tərəfindən sərhədyanı bölgələrdə təxribatlar barədə ətraflı məlumat verib. Nazir Ermənistanın liderlər səviyyəsində əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərini yerinə yetirmədiyini, normallaşma prosesi üzrə beynəlxalq səylərə maneə törətdiyini bildirib. C.Bayramov bölgədə sabitliyin təmin olunması, Ermənistan ilə kommunikasiyaların açılması, delimitasiya prosesi və sülh sazişinin imzalanması barədə ölkəmizin mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

Fransa tərəfi bölgədə vəziyyətin sabitləşməsinin, atəşkəsə əməl edərək normallaşma prosesinin və danışıqların bərpa olunmasının zəruriliyini vurğulayıb. Fransa tərəfinin qeyd edilən prosesdə dəstək göstərməyə hazır olduğunu qeyd edib.

Görüş zamanı digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisdə görüş



Sentyabrın 29-da Milli Məclisin bir qrup deputatı - Səməd Seyidov, Qənirə Paşayeva, Sevinc Fətəliyeva və Asim Mollazadə UNESCO-nun Afrikanın müxtəlif ölkələrindən olan məsul şəxsləri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Diplomatiyada parlamentin rolu" mövzusuna həsr olunan görüş ADA Universiteti və Azərbaycanın UNESCO üzrə Milli Komissiyası ilə əməkdaşlıq çərçivəsində parlamentdə keçirilib.

Tədbiri açan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov qonaqları salamlayaraq Azərbaycan parlamenti, siyasi partiyaların, qadınların, millətlərin parlamentdə təmsilçiliyi barədə məlumat verib.

Parlament diplomatiyasının müasir beynəlxalq münasibətlər sistemində əhəmiyyətini qeyd edən Səməd Seyidov Azərbaycanın qlobal miqyasda parlamentlərarası əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğulayıb. O, Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis edilməsindən və Parlament Şəbəkəsinin Bakıda keçirilən ilk konfransından söz açıb. Komitə sədri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, beynəlxalq diplomatiyada parlamentlərin rolunun artırılması istiqamətində əhəmiyyətindən danışıb.

Səməd Seyidov həmçinin Azərbaycanın 44 günlük Vətən müharibəsində öz torpaqlarını azad etməsindən danışaraq Ermənistanın 30 illik işğalının acı nəticələrinin aradan qaldırılması, regionda sülhün və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində ölkəmizin gördüyü işlər barədə qonaqlara ətraflı məlumat verib.

Görüşdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva və komitə üzvü Asim Mollazadə çıxış ediblər. Deputatlar Azərbaycanın mədəni, dini və etnik müxtəlifliyi əsrlərdir qoruyub saxlamasından, onun tolerantlıq ənənələrindən danışıblar. Bildirilib ki, Şərqdə ilk parlament, ilk demokratik, hüquqi və dünyəvi dövlət məhz Azərbaycanda elan edilib, qadınlara seçmək və seçilmək hüququ verilib. Qonaqlara Milli Məclisin beynəlxalq təşkilatlarda iştirakı, parlamentdə fəaliyyət göstərən dostluq qrupları barədə məlumat verilib.

Sonra Səməd Seyidov, Asim Mollazadə və Sevinc Fətəliyeva beynəlxalq əməkdaşlıq, diplomatiyada parlamentlərin rolu və parlament diplomatiyasının imkanları kimi mövzularda qonaqların səsləndirdikləri sualları cavablandırıblar. Deputatlar diplomatiyanın müasir tendensiyaları, diplomatiyada parlamentin rolu, Azərbaycanın Afrika ölkələri ilə UNESCO çərçivəsində münasibətlərinin daha da inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

*"Azərbaycan"*

# Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun iştirakçıları Şuşaya səfər ediblər

Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun iştirakçıları sentyabrın 29-da Qarabağın incisi, tariximizin və mədəniyyətimizin simvolu olan Şuşa şəhərini ziyarət ediblər.




AZƏRTAC xəbər verir ki, qonaqların Azərbaycan mədəniyyətinin paytaxtı ilə tanışlığı ölkəmizin tanınmış şəxsiyyətləri Bülbül, Xurşidbanu Natəvan və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi Şuşa şəhər mərkəzi meydanından başlayıb.

Onlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda aparılan quruculuq işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Diqqətə çatdırılıb ki, 270 yaşlı mədəniyyət paytaxtı olan Şuşa şəhəri hər zaman muğam-sənət beşiyi kimi tanınıb. Sənətkarlığın və incəsənətin müxtəlif sahələrinin inkişafı nəinki Azərbaycanın Qarabağ bölgəsinin, bütövlükdə ölkəmizin tərəqqisində mühüm rol oynayıb. Şuşa Azərbaycan ədəbiyyat və mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş görkəmli şəxsiyyətlərin diyarıdır.

Qonaqlara Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri barədə də məlumat verilib. Bildirilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər əvvəlki yerlərinə qaytarılıb.

Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları da qonaqlarda maraq doğurub. Məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Qonaqlar Cıdır düzündə də olub, oradan açılan gözəl mənzərəni seyr ediblər. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi zamanı qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları, qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, yenə də möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.

Beyin mərkəzlərinin nümayəndələri Azərbaycanın mədəniyyət paytaxtının gözəlliyinə heyran olduqlarını bildirərək, Şuşanın azad edilməsinin tarixi əhəmiyyətini vurğulayıblar. Onlar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən uzun illər Ermənistanın işğalı altında olan ərazilərin, o cümlədən Şuşa şəhərinin azad edilməsindən böyük sevinc və qürur hissi keçirdiklərini bildiriblər.

Qeyd edək ki, sentyabrın 28-də Bakıda keçirilmiş Azərbaycan Beyin Mərkəzlərinin I Forumunun əsas məqsədi beyin mərkəzlərinin fəaliyyətinin stimullaşdırılması və dövrün tələblərinə uyğun təşkil edilməsi, dövlət qurumları və beyin mərkəzləri arasında kommunikasiyanın və əməkdaşlığın qurulmasını təmin etməkdir. Forumda yerli və xarici beyin mərkəzlərinin təmsilçiləri ilə yanaşı, müxtəlif dövlət qurumlarının nümayəndələri də iştirak ediblər.

# *Sarvat RAUF:* "Dağıdılmış yerləri, xüsusilə də məscidləri görmək mənim üçün çox ağırdır"

"Azərbaycana gələnlərin Şuşanı ziyarət etməsini tövsiyə edərdim. Çünki bu ərazilər çox gözəldir. Azərbaycana gələnlər bu ərazilərə mütləq baş çəkməlidirlər". Bunu AZƏRTAC-a açıqlamasında ABŞ-ın Corc Vaşinqton Universitetinin Elliott Beynəlxalq Münasibətlər Məktəbinin elmi işçisi Sarvat Rauf deyib.

"Dağıdılmış yerləri, xüsusilə də bəzi məscidləri, dini məkanları görmək mənim üçün çox ağırdır. Düşünürəm ki, hətta müharibənin də normaları var. Odur ki, başqa dövlətlə münaqişədə diqqətli olmaq lazımdır. Burada baş vermiş hadisələr bir ölkənin digər ölkəyə real hərbi təcavüzünü nümayiş etdirir", - deyə S.Rauf bildirib.

# *Sultan Ahmed ALİ:* "Azad olunmuş ərazilərdə sürətlə aparılan bərpa işləri məni sevindirir"

"Azad edilmiş ərazilərin işğal zamanı minalandığını, dini abidələrin, o cümlədən məscidlərin və kilsələrin, həmçinin buradakı bütün tikililərin dağıdıldığını görəndə çox narahat oldum. Lakin Azərbaycan hökuməti tərəfindən bu ərazilərdə sürətlə aparılan bərpa işləri məni sevindirir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Pakistanın "MUSLIM" institutunun sədri Sultan Ahmed Ali deyib.

Bir pakistanlı olaraq Şuşaya səfər etdiyi üçün çox xoşbəxt olduğunu deyən Sultan Ahmed Ali Azərbaycan xalqına uğurlar arzulayıb.

O, "MUSLIM" institutunun İkinci Qarabağ müharibəsi ərzində Pakistanda bir çox tədbirlər keçirdiyini bildirib. Həmçinin Xocalı soyqırımı ilə əlaqədar Pakistanın dost ölkələrinə, beynəlxalq və regional təşkilatlara məktubların göndərildiyini diqqətə çatdırıb.

# *Pakistanlı diplomat:* "Azərbaycanın azad olunmuş ərazilərdə həyatı bərpa etmək üçün göstərdiyi qətiyyət məni heyran etdi"

"İşğalçı Ermənistanın bu ərazilərdə nələr etdiyini eşidəndə çox sarsıldım. İbadət yerləri - məscidlər, kilsələr murdarlanıb, ərazilər minalanıb, müxtəlif ictimai yerlər tamamilə dağıdılıb. Bu ərazilər insanların yaşaması üçün çox təhlükəlidir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında İslamabad Strateji Araşdırmalar İnstitutunun sədri, pakistanlı diplomat Xalid Mahmud bildirib.

"İşğalçı qüvvələrin burada etdikləri beynəlxalq hüquqa, işğalçı dövlətə hər hansı əmlakı məhv etməyi qadağan edən qanunlara ziddir. Azərbaycan hökumətinin işğaldan azad olunmuş əraziləri "ağıllı şəhər" kimi yeni, müasir formada bərpa etməsini görmək məni sevindirdi. İndi Azərbaycanın bu ərazilərdə yeni həyatı bərpa etmək üçün göstərdiyi qətiyyət məni heyran etdi. Buraya qayıdacaq insanlara gözəl günlər arzulayıram", - deyə pakistanlı diplomat qeyd edib.

## Unutsaq unudularıq

# Dəyərlər daşıyıcısı idi



Qayda budur, igid gedər ad qalar,
Yaxşıdan da, yamandan da ağızda bir dad qalar!..

Bəli, insanlar bu dünyanı tərk etdikdən sonra da doğmaları, dostları, ünsiyyətdə olduqları adamlar tərəfindən vaxtaşırı xatırlanırlar.

Nədənsə biz insanları itirdikdən sonra qədirlərini daha çox bilir, layiq olduqları qiyməti veririk.

Hərdən sağlıqlarında kifayət qədər dəyər verdiklərimizin də yerləri boş qaldıqdan sonra o yerin bir daha "dolmayacağını" ürək ağrısı ilə dərk edirik...

Söylədiklərimiz daha çox özlərində xalqımızın milli-mənəvi dəyərlərini, vətənpərvərlik, müdriklik, səbirlilik, səmimilik, xeyirxahlıq, uzaqgörənlik, ehtiyacı olana əl tutmaq kimi keyfiyyətlərin daşıyıcısı sayılan insanlara aiddir.

Həm də ürək dostlarımıza...

Bütün bu keyfiyyətlərin daşıyıcılarını isə yığcam şəkildə Azərbaycan dilinin ən qiymətli kəlmələrindən sayılan "ağsaqqal", "yaxşı adam", "mərd insan" sözləri ilə ifadə edirik.

Bir məqamı da vurğulayaq:

Xalqımız heç zaman saqqalı ağ olana ağsaqqal deməyib!

Sınamadığını, yaxından tanımadığını, xeyirxah əməllərini görmədiklərini heç halda yaxşı adam adlandırmayıb!

"Tərəzi funksiyası" daşıyan el gözü isə heç zaman səhvə yol vermir.

❖ ❖ ❖

Uzun illər Milli Məclisin deputatı olmuş, Respublika Ağsaqqallar Şurasına rəhbərlik etmiş Fəttah Heydərovla tanışlığımız elə Milli Məclisdə başlamışdı.

Parlamentdə "köhnə deputatlar"ın qeyri-rəsmi şəkildə deputat İmamverdi İsmayılovun "sinifkom"luğu ilə təsis etdiyi "Ağsaqqal deputatlar klubu"nda isə yaxınlığımız yarandı.

Hamımız onu hörmətlə "Fəttah müəllim" deyə çağırar, o olmayan yerdə "Fəttah kişi" deyib xatırlayardıq.

Ona "Fəttah dayı" deyənlər də çox idi.

Adına qoşulan bu üç ifadənin hamısı ona yaraşardı.

Çünki həyatda bu hörmətli adları öz əməlləri ilə qazanmışdı.

Bizi yaxınlaşdıran ən mühüm amil isə hər ikimizin qəzetə olan sevgisi, isti münasibəti idi.

Fəttah Heydərov 1966-cı ildən 1995-ci ilədək Naxçıvan Vilayət Partiya Komitəsinin təlimatçısı, sonra iki rayonun birinci katibi, ən nəhayət, muxtar respublikanın mədəniyyət naziri vəzifəsində çalışarkən daim mətbuatla işləmiş, ideoloji işlə məşğul olmuşdu. Odur ki, qəzeti, qəzetçiliyi yaxşı bilirdi, uğur və nöqsanları dərhal görür, qiymətləndirir, dəyərli tövsiyə və fikirlərini söyləyirdi.

O, gündəlik mətbuatı diqqətlə izləyir, vaxtaşırı özü də məqalələr yazır, açıqlamalar verir, siyasi həyatda fəal iştirak edirdi. Söhbətlərindən aydın görünürdü ki, "Azərbaycan"da gedən əksər yazıları oxuyur. Uğurlu yazı görəndə dərhal qeyd edir, ruhlandırırdı. Nəzərimizdən qaçan bir nöqsan olanda isə diqqəti ona yönəldir, ustalıqla, ehmallıqla tənqidi fikirlərini söyləyirdi.

Beləcə, xeyirxahlıq müstəvisində qəzetçilik dostluğumuz yarandı, sonra Ağsaqqallar Şurasının tədbirlərində əməkdaşlığa çevrildi.

Fəttah müəllim geniş dünyagörüşünə, zəngin təcrübəyə malik insan idi. Bir gün belə mütaliədən qalmırdı. Ən çox oxuduğu da tariximizə dair bədii və sənədli əsərlər olardı.

Söhbət əsnasında yeni oxuduğu əsərlərdən misallar gətirər, müqayisələr aparar, maraqlı, ibrətamiz nəticələr çıxarmağı bacarardı.

Həm də oxuduqlarını bizimlə bölüşərək bizi də zənginləşdirərdi.

Fəttah müəllimin səbrinə və təmkininə həsəd aparmaq olardı. Hətta daxilən hirslənsə, hövsələdən çıxsa belə, üzdə hiss edilməzdi. İnsanları səbirlə sonadək dinləyər, məsələnin mahiyyətini aydınlaşdıran suallar verər, sonra öz qərarını bildirərdi.

Prinsipiallığına isə söz olmazdı. Uzun-uzadı mübahisə etməyi sevməzdi. Faktlarını, arqumentlərini söyləyər, dediklərini əsaslandırar, fikrində qəti olduğunu anladardı. Məsələ uzadılanda isə, necə deyərlər, ucun tutub ucuzluğa getməzdi. Son sözünü söyləyib mövqeyini bir daha açıq göstərər, fikrində israrlılığını bildirərdi. Ya da son sözünü deyərək məsələnin bitdiyini anlatmaq mənasında otağı tərk edərdi.

❖ ❖ ❖

Milli Məclisin hər bir üzvü təqribən 30-40 min seçicini təmsil edir. Öz deputatlarına parlamentə düşmək üçün səs verən insanlar pozulmuş hüquqlarının bərpası, yaxud hansısa problemlərinin həlli üçün vaxtaşırı millət vəkillərinə müraciətlər edir, məktub yazır, görüşürlər. Deputatların isə həmin xahiş və tələbləri ödəmək üçün bir imkanı var: şifahi, yaxud yazılı formada hansısa ünvana sorğu göndərmək, məsələnin müsbət həllinə nail olunması üçün kimdənsə xahiş etmək!

Təbii ki, sözükeçən deputatlar daha çox insanı razı salır (hərçənd ki, "yüz faizlik razılıq" mümkün deyil), daha çox müraciəti müsbət həll edir. Onlardan "razılıq faizi" də yüksək olur. Ən çox seçici müraciətini uğurla həll edən deputatlardan biri Fəttah müəllim sayılırdı.

Əvvəla, insanlara dayaq durmağı, kömək etməyi sevir, buna həmişə can atırdı.

İkincisi, böyük hörmət sahibi olduğundan müraciət etdiyi məmurlar, səlahiyyət sahibləri sorğularına isti yanaşar, həllinə çalışardılar.

Üstəlik, Respublika Ağsaqqallar Şurasının sədrinin sözünü kimsə diqqətdən kənarda saxlamazdı.

Bəzən biz deputatların da Fəttah müəllimdən xahişləri olurdu: Onun hörməti hesabına öz seçicimizin arzusunu gerçəkləşdirmək istəyirdik.

Fəttah müəllim bu məqamda da ayrı-seçkilik salmaz, düzələn işə dəstək verərdi.

❖ ❖ ❖

Fəttah Heydərov Respublika Ağsaqqallar Şurasının sədri seçildikdən sonra bu qurumun fəaliyyəti xeyli canlandı və genişləndi, nüfuzu yüksəldi. Respublikanın hörmətli insanları, ziyalıları, alimləri, tanınmış simaları qurumun işinə cəlb olundu, keçirilən tədbirlərin sayı və sanbalı daha da artdı. Özü də Ağsaqqallar Şurası öz fəaliyyətini təkcə paytaxt Bakı ilə məhdudlaşdırmır, regionlarda da intensiv tədbirlər keçirirdi.

Dövlətin siyasətinin izahına, görülən işlərin təbliğinə, qüvvələrin qarşıdakı vəzifələrin həllinə səfərbərliyə alınmasına xidmət edən tədbirlər üstünlük təşkil edərdi. Ağsaqqal sözündən, ağsaqqal nüfuzunun gücündən istifadəyə diqqət artırılardı. Fəttah müəllim hər rayonda, hər şəhərdə keçirilən tədbirlərə hökmən yerli gənclər təşkilatının nümayəndələrini, çoxsaylı gəncləri də dəvət edərdi.

"Qoy dövlətin gördüyü və görəcəyi işlərdən yaxından xəbərdar olsunlar, yaşlı nəsildən dövləti sevməyi və ona təmənnasız xidmət etməyi öyrənsinlər" - deyərdi.

Bir neçə il ardıcıl rəsmi dövlət qəzeti olaraq həmin tədbirlərin, görüş və müzakirələrin iştirakçısı olduq.

Hər bir tədbirin hazırlanması, həmin görüşdə hansı mövzunun müzakirəyə çıxarılması, yaxud hansı yeni kitabın təqdimatının keçirilməsi, eyni zamanda çıxışçıların müəyyənləşdirilməsi və digər məsələləri birlikdə müzakirə edib razılaşardıq. Fəttah müəllim heç zaman özünü yuxarı tutmaz, yalnız öz dediyini, istədiyini yeritməyə çalışmazdı.

Müsahibini eşidərdi, razılaşardı, mübahisəli məqamda ortaq məxrəcə gəlməyi bacarardı.

Fəttah müəllim həm də yumşaq ürək sahibi idi. İnsanlara "yox" deməkdə çətinlik çəkirdi.

"Dəyirmi masa"larda adətən 8-12 nəfər çıxışçı nəzərdə tutardıq. Həm tədbir uzanmasın, həm də insanlar yorulmasın mülahizəsi ilə... Sonralar regionlarda keçirilən "dəyirmi masa"lara maraq o qədər artdı ki, onu nəzərə alaraq tədbirin keçirildiyi yerə yaxın rayonlardan da nümayəndələr çağırmağa başladıq. Hər rayondan bir ağsaqqala və bir nəfər gəncə söz veriləndə isə çıxışçıların sayı artır, tədbir uzun çəkirdi. Fəttah müəllimin səhhətində müəyyən problem olduğundan hərdən yorulduğunu hiss edərdim: "Bəlkə siyahıdan kənara çıxmayaq, digərlərinə söz verməyək" - deyərək təklif edəndə razılaşmazdı: "Durub ordan bura gəliblər, necə onlara danışmaq imkanı yaratmayaq" söyləyərək etiraz edərdi. Əslində, insanların istəyini ödəmək üçün narahatlığa dözər, xəstəliyinə əhəmiyyət verməzdi!

Belə insan idi Fəttah kişi!

❖ ❖ ❖

Müstəqilliyimizin ilk illərində, xüsusən 90-cı illərin əvvəllərində Azərbaycanda ciddi proseslər və çalxalanmalar baş verdi, bəzi insanlarda mövqe müxtəlifliyi, əqidə dəyişkənliyi yarandı.

Yolundan azan, müxtəlif vədlərə uyan, yanlış mövqe tutanlar da az olmadı.

Müxtəlif təsirlərə düşərək yanılanlar, Azərbaycanın fəlakətə doğru getdiyini anlamayanlar da vardı.

Fəttah müəllim bu təlatümlü günlərdə, qanlı-qadalı illərdə bir dəfə də olsun əqidəsindən dönmədi, yalnış hərəkətə yol vermədi.

Ulu Öndər Heydər Əliyevə daim sadiq oldu, Azərbaycanın, müstəqilliyimizin xilasının yalnız bu dahi insandan asılı olduğunu bilirdi, bunu hamıya da çatdırmağa çalışırdı. Ümummilli Liderimiz böyük siyasətdən müvəqqəti ayrılarkən, Naxçıvanda ömrünün ən çətin və sınaqlı günlərini yaşayarkən onun yanından ayrılmadı, tapşırıqlarını qətiyyətlə icra etdi. Həm insan kimi, həm də siyasi xadim kimi müstəqil Azərbaycanın qurtuluş və xilası yoluna sədaqətini dəfələrlə göstərdi.

Zaman hər şeyi öz yerinə qoyandan, Ulu Öndərimiz yenidən ölkə rəhbərliyinə qayıdaraq hakimiyyət sükanı arxasına keçəndən sonra buna ən çox sevinənlərdən biri Fəttah müəllim oldu. Lakin mübarizə hələ bitməmişdi. 1994-cü ilin 4 oktyabr və 1995-ci ilin 13-18 mart dövlət çevrilişi cəhdləri də xalqımız, ölkə vətəndaşlarının hər biri üçün əsl sınağa çevrildi. Bu dəfə də Xalq - Heydər birliyi qalib gəldi.

Çətin quruculuq illəri, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və əbədiliyə çevrilməsi dövrü başladı. Fəttah müəllim bu dövrdə də öncüllər sırasında idi. Nüfuzlu ağsaqqal sözündən istifadə edərək insanların səfərbərliyə alınmasında, doğru yola yönləndirilməsində köməyini əsirgəmirdi.

Altı dəfə Milli Məclisə deputat seçildi, "Şöhrət", "Şərəf" ordenlərinə layiq görüldü.

"İstiqlal" ordenini isə ona möhtərəm Prezidentimiz cənab İlham Əliyev təqdim etdi, haqqında dəyərli, xoş sözlər söylədi.

Son dövrlərdə bir neçə dəfə yeni çağırış Milli Məclisin ilk iclası keçiriləndə daxili Nizamnaməyə uyğun olaraq onu parlamentin ən yaşlı və ağsaqqal deputatı kimi Fəttah Heydərov açırdı, prosedura uyğun məsələlərin həllində iclasa sədrlik edirdi...

VI çağırış Milli Məclisin payız sessiyasının budəfəki iclasını isə əziz dostumuz və ağsaqqal deputatımız Fəttah Heydərovsuz keçiririk...

Fəttah müəllim Fəxri xiyabanda uyuyaraq əbədi dünyasını yaşayır...

Əziz xatirəsi isə doğmalarının, dostlarının, əqidəli insanların qəlbindədir...

Bəli, nə vaxtsa insan işıqlı dünyadan köçür, xeyirxah əməlləri, qazandığı yaxşı ad, Vətənə sədaqətli xidmət örnəyi isə daim yaşayır...

**Bəxtiyar SADIQOV**

# Media Reyestrinin yaradılması mətbuatın inkişafında yeni mərhələdir

Dövlətimizin bütün dövrlərdə cəmiyyətin güzgüsünə çevrilən, hər bir ölkənin inkişaf səviyyəsini göstərən mətbuatın fəaliyyətinin stimullaşdırılması, media mühitinin sağlamlaşdırılması istiqamətində atdığı addımlar davamlılığı ilə diqqət çəkir. Bu gün artıq yeni dövrün yeni reallıqlarını yaşayırıq. Tarixi Zəfərimiz bütün sahələrdə yeniliklərə, təkmilləşməyə yol açmaqla yanaşı, mətbuatımızın da qarşısında bir sıra həlli vacib məsələlər qoydu.



Dövlət başçısı İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərmanı ölkə mediasının inkişafında yeni bir mərhələnin əsası oldu. Bunun üçün ötən bir ildən artıq dövrdə sözügedən fərmandan irəli gələn və mətbuatın inkişafına xidmət edən addımların xronologiyasına diqqət yetirmək kifayətdir.

Azərbaycan Prezidentinin qeyd edilən fərmanı əsasında yaradılan Medianın İnkişafı Agentliyinin (MEDİA) bu müddətdə həyata keçirdiyi layihələr, yeni dövrün tələbinə uyğun olaraq "Media haqqında" qanunun hazırlanması ilə bağlı apardığı müzakirələr və son nəticədə bu qanunun prosedur qaydalarına uyğun şəkildə Milli Məclisdə qəbul olunması və bu ilin fevralında dövlət başçısı İlham Əliyevin müvafiq fərmanı əsasında təsdiqlənərək qüvvəyə minməsi mətbuat sahəsində təkmil hüquqi bazanın yaradılmasını təmin etdi.

Bundan əlavə, jurnalistlərə sosial ipotekadan yararlanmaq imkanının verilməsi, qəzet kağızının ƏDV-dən azad edilməsi, Media Reyestrinin qaydalarının təsdiqi və sair bu kimi bir-birindən əhəmiyyətli addımlar dünya informasiya məkanına inteqrasiya siyasətini uğurla həyata keçirən Azərbaycanın media mühitinə gətirdiyi yeni yanaşmaların təqdimatıdır.

Bu kimi qərarlar bir daha təsdiqləyir ki, azad, müstəqil mətbuatın inkişafı demokratiyanın vacib amillərindən biri kimi dövlətin siyasətində mühüm yer tutur. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, demokratik cəmiyyəti mətbuatsız təsəvvür etmək mümkün deyil. Eyni zamanda bütün dövrlər üçün aktual olan ictimai nəzarətin gücləndirilməsi məsələsində də mətbuatın üzərinə böyük məsuliyyət düşür. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyevin bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində bu məqam xüsusi önə çəkildi.

Bu, bir reallıqdır ki, hər bir sahədə möhkəm təməl uğurların davamlılığında əhəmiyyətli rol oynayır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli fərmanına əsasən senzuranın götürülməsi ilə mətbuatımızın qarşısında yaranan imkanlar zaman keçdikcə daha da genişlənir, dövrün tələblərinə uyğun olaraq qarşıya çıxan vəzifələrin yerinə yetirilməsi üçün medianın fəaliyyətini tənzimləyən qanunda əlavə və dəyişikliklərə, o cümlədən yeni qanunun qəbuluna zərurət yaranır. Məlum olduğu kimi, "Media haqqında" Azərbaycan Respublikasının yeni qanununun qəbulu da bu zərurətdən yarandı. Belə ki, 1999-cu ildə qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" qanun o dövrün reallıqlarını əks etdirirdi. Zaman keçdikcə ölkəmizin həyatında baş verən yeniliklər eyni zamanda hər bir sahənin inkişafına geniş imkanlar yaradan, cəmiyyətin idarə olunmasında əhəmiyyətli rol oynayan qanunlarımızda yeniləşməni bir tələb kimi qarşıya qoyurdu. Bu baxımdan mətbuatın inkişafında yol xəritəsi kimi dəyərləndirilən "Media haqqında" qanun özündə 78 maddəni ehtiva edir və burada əks olunan hər bir müddəa çağdaş mətbuatımız qarşısında yeni vəzifələr qoyur. Təbii ki, hədəflərə zamanında və yüksək səviyyədə nail olmaq üçün birgə səylərin göstərilməsi, qüvvə və bacarıqların səfərbər edilməsi mühüm əhəmiyyət kəsb edir. Hər bir mətbu orqan "Media haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələbləri sözdə deyil, əməldə yerinə yetirsə, düşünürük ki, azad və demokratik ölkəmizdəki mühitin daha da təkmilləşdirilməsinə, sağlamlaşdırılmasına öz böyük töhfəsini verə bilər. Hər zaman bu reallığı təqdirəlayiq hal kimi qeyd edirik ki, müasir müstəqil Azərbaycan söz və mətbuat azadlığının inkişaf səviyyəsinə görə MDB məkanında ən qabaqcıl yerlərdədir. Eyni zamanda bu gün Azərbaycanın adı internetin azad olduğu ölkələr sırasındadır. Ölkə əhalisinin 85 faizdən çoxu internet istifadəçisidir.

Bütün bu reallıqları görməzdən gəlib Azərbaycanı qərəzli surətdə "qeyri-azad ölkə"lər sırasında qeyd edən bəzi beynəlxalq hüquq müdafiə təşkilatlarının hesabatları ilə bağlı dövlət başçısı İlham Əliyevə ünvanlanan sualların cavabı daim bu olur ki, internetin azad olduğu ölkədə mətbuata hər hansı qadağalardan söhbət gedə bilməz. Azərbaycanda azad sözə, fikrə böyük dəyər verilir. Hər kəs öz fikirlərində sərbəstdir. Ölkəmizdə medianın inkişafına, jurnalistlərin sərbəst fəaliyyətinə, peşəkarlıqlarının artırılmasına böyük diqqət göstərilir. Azərbaycanda media sahəsində yaradılan şəraitə bəlkə də dünyanın inkişaf etmiş ölkələrində belə rast gəlmək mümkün deyil.

Azərbaycan dövlətinin, cəmiyyətinin mətbuatdan gözləntiləri də dövrün reallıqlarına uyğun dəyişir. Hazırkı dövrdə mediamızdan əsas gözlənti milli informasiya təhlükəsizliyini qorumaq, dövlətin, xalqın maraqlarını daim ön planda saxlamaq, peşə etikasına riayət etmək, jurnalistikanın obyektivlik, qərəzsizlik kimi təməl prinsiplərini daim fəaliyyətində əsas götürməkdir. Yeni qanunda bu gözləntilərin həyata keçirilməsinə yönələn mexanizmlər daha təkmil formada öz əksini tapıb. Sənəddə postmünaqişə dövrünün reallıqlarının gerçəkləşməsinə medianın hansı töhfələri verməli olduğu da xüsusi yer alıb.

Bu istiqamətdə atılan hər bir addım, qəbul olunan hər bir qanun, imzalanan hər bir fərman və sərəncam informasiya mühitinin sağlamlaşmasına, informasiya resurslarımızın artmasına, jurnalistlərin statusunun yüksəldilməsinə, nüfuzunun güclənməsinə xidmət edir. Bu baxımdan Media Reyestrinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Media Reyestrinin yaradılması ölkədə fəaliyyət göstərən mətbuat orqanlarının sayının müəyyənləşdirilməsini və onların akkreditasiyasının effektli şəkildə həyata keçirilməsini təmin edəcək. Media Reyestrinə məlumatların daxil edilməsi bu sahədə çalışan işçilərin hüquqlarının müdafiəsi, əmək münasibətlərinin tənzimlənməsi baxımından böyük önəm kəsb edir. Digər tərəfdən, Media Reyestrinin formalaşdırılması medianın inkişafı ilə bağlı layihələrin həyata keçirilməsində müsbət rol oynayacaq. Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin verilməsi könüllülük əsasında həyata keçiriləcək və məcburi xarakter daşımayacaq. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Media Reyestrinin yaradılması və vahid jurnalist vəsiqəsinin verilməsi media sahəsində boşluqların aradan qaldırılmasına öz töhfəsini verəcək. Əvvəldə də qeyd etdiyimiz kimi, bu ilin fevralında ölkə Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə" fərman imzalandı. Bu mühüm qərar da jurnalistlərin sosial rifahının yüksəldilməsinə xidmət edən addımların tərkib hissəsidir.

Mətbuatımızın qısa zamanda keçdiyi inkişaf yoluna nəzər salmaqla həm dövlətin, həm də Medianın İnkişafı Agentliyinin qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmaq üçün səylər göstərdiklərini və uğurlu nəticələrə nail olduqlarını böyük əminliklə söyləyə bilərik. Agentlik qısa müddətdə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atmaqla media ictimaiyyətinin rəğbətini qazanıb. Hesab edirəm ki, dövlət başçısı İlham Əliyevin 26 sentyabr 2022-ci il tarixli "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" fərmanı medianın inkişafında növbəti mərhələnin başlanmasının təsdiqidir. Bütün hallarda məqsəd peşəkar medianın fəaliyyətinin stimullaşdırılmasıdır. Media Reyestrinə daxil olan jurnalistlərə vahid jurnalistika vəsiqəsinin verilməsi könüllü olsa da, əminəm ki, bu addım media mühitinin sağlamlaşmasına çox müsbət təsir göstərəcək. Media Reyestrinin aparılması qaydaları "Media haqqında" qanunun 73.6-cı "Media Reyestrinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir maddəsinə uyğun olaraq hazırlanmışdır" maddəsinə uyğun tərtib edilib. Hər bir maddənin təhlili fonunda bu ümumiləşdirməni aparmaq mümkündür ki, jurnalistlərin Media Reyestrinə daxil edilməsində prioritet istiqamət cəmiyyətin informasiya tələbatının ödənilməsində mühüm rol oynayan mətbuat işçilərimizin peşəkarlığının və məsuliyyətinin artırılmasıdır. Həmin maddələr arasında bu mühüm müddəa da öz əksini tapır ki, jurnalistlərin Media Reyestrinə daxil edilməsi üçün qanunla nəzərdə tutulan tələblərdən biri onların ali təhsilinin vacib olmasıdır. Təbii ki, burada söhbət jurnalist təhsilindən getmir.

İstənilən sahədə ali təhsil almış şəxs bu tələbə uyğun hesab edilir. Çünki bu gün başqa ixtisas sahibi olub mətbuatda öz sözünü deyən jurnalistlərimiz kifayət qədərdir. Göründüyü kimi, medianın inkişafı, jurnalistlərin peşəkarlığının artırılması üçün bütün zəruri addımlar atılır. Dövlət başçısı İlham Əliyevin bütün çıxışlarında jurnalistlərin peşəkarlığının və məsuliyyətinin vacibliyi xüsusi qeyd edilir.

Bu günlərin mühüm hadisələri sırasında yer alan Azərbaycan jurnalistlərinin VIII qurultayında da dövrün reallıqları geniş müzakirə olunaraq hədəflərə diqqət yönəldildi. Qurultayda ümumi fikir bu oldu ki, media mühitinin sağlamlaşdırılması, jurnalistlərin peşə etika kodeksinə yüksək səviyyədə əməl etmələri qarşıda duran ən mühüm vəzifələrdəndir. Mətbuat Şurasının yeni tərkibinin formalaşdırılması gözləntilərin yüksək səviyyədə həyata keçirilməsində öz sözünü deyəcək.

Ümumilikdə cari ilin arxada qalan dövrü media sahəsində mühüm addımlarla zəngindir. Media Reyestrinin yaradılması və reyestrin aparılması qaydalarının təsdiqlənməsi medianın inkişafı sahəsində açılan yeni səhifənin zənginliyindən xəbər verir. Bunun üçün hər bir jurnalist bu qaydaları dərindən öyrənib mənimsəməli, bu mühüm addımın əhəmiyyətini düzgün təhlil etməli, ən əsası, qarşıya qoyulan hədəfə öz töhfəsini verməlidir. Odur ki, Media Reyestrinin iştirakçısı olaq və yaradılan imkanlardan yararlanaraq media mühitinin sağlamlaşdırılmasına dəstək verək.

**Vüqar RƏHİMZADƏ,**
***"İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist***

## *Alev KILIÇ:* "Füzuli aeroportu Azərbaycanın bu bölgəni əvvəlkindən daha gözəl hala gətirəcəyinə işarədir"




"İşğaldan azad olunmuş ərazilərə ilk dəfə səfər edirik. Füzulidə məscidi, dağıdılmış qəbiristanlığı və evləri gördük. Burada gördüklərimiz insana qəmginlik verir. Bu ərazilərin yenidən necə dirçələcəyini düşünürdük. Lakin Füzuli Beynəlxalq Hava Limanını gördükdən sonra hər şeyin daha gözəl olacağını deyə bilərik".

Bunu AZƏRTAC-a açıqlamasında Avrasiya Araşdırmalar Mərkəzinin (AVİM) direktoru səfir Alev Kılıç söyləyib.

"Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində Azərbaycan və Türkiyə prezidentləri birlikdə iştirak etdilər. Hava limanı bizə Azərbaycanın bu ərazilərdə daimi olduğunu, ölkənin bölgəni əvvəlkindən daha müasir və gözəl hala gətirəcəyini göstərən işarədir. Buna görə də ərazilərdəki vəziyyəti gördüyümüz zaman hiss etdiyimiz kədər xoşbəxtliyə və ümidə çevrildi", - deyə A.Kılıç qeyd edib.

Şuşa Bəyannaməsinin siyasi əhəmiyyətinə də toxunan diplomat bildirib ki, Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan bu mühüm sənəd qardaş ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə ən yüksək səviyyədə olduğunun əyani göstəricisidir.

# Ermənistanın rəhbərliyi danışıqlar prosesinə qeyd-şərtlər irəli sürməməlidir

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan XİN-in Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı 2022-ci il 28 sentyabr tarixli əsassız bəyanatını şərh edib.

AZƏRTAC XİN-in Mətbuat xidməti idarəsinə istinadla şərhi təqdim edir: "Ermənistanın baş nazirinin sosial şəbəkə hesabı üzərindən Azərbaycana qarşı saxta ittihamları açıq şəkildə Ermənistanın bölgədəki vəziyyəti gərginləşdirmək məqsədi güddüyünü göstərir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən əvvəlcədən məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 28-i saat 18:00 radələrində Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətindəki bölmələrini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub və nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb. Beləliklə də, Ermənistan tərəfinin atəşkəsi pozaraq əl atdığı təxribata cavab olaraq Azərbaycan Ordusu adekvat tədbirlər görüb.

Ermənistan tərəfinin artıq "ənənə" xarakteri almış təxribatlarının növbəti yüksəksəviyyəli görüş ərəfəsində məqsədli şəkildə baş verməsi şübhə doğurmur. Xatırladırıq ki, Ermənistan bu ilin 13 sentyabr tarixində saat 9:00-da əldə edilmiş atəşkəsi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Zirvə görüşü ərəfəsində pozaraq, qəsdən gərginliyi artırmaqla təxribatlarını 36 saat davam etdirdi. İndi də həm iki dövlət arasında yenidən təmasların baş tutduğu, növbəti görüşlərin planlaşdırıldığı bir vaxtda və bölgəyə beynəlxalq vasitəçilərin səfəri ərəfəsində Ermənistan eyni oyunu oynayır, insanları öz cılız siyasətinin qurbanına çevirir.

Aydındır ki, bu, Ermənistanın danışıqlar prosesini pozmaq üçün növbəti bəhanəsidir.

Ermənistan rəhbərliyi bölgədəki vəziyyəti gərginləşdirməməli, danışıqlar prosesinə qeyd-şərtlər irəli sürməməli, beynəlxalq ictimaiyyəti ittiham etmək təcrübəsini dayandırmalı və danışıqlar masasında əyləşməlidir.

Ermənistandan fərqli olaraq, sülh gündəliyinin təşəbbüskarı olan, işğaldan azad edilmiş ərazilərimizdə irimiqyaslı bərpa quruculuq və nəqliyyat kommunikasiyalarının açılması üçün sürətlə iş aparan Azərbaycan bölgədə gərginliyin yaranmasında maraqlı deyil. Lakin ölkəmizə qarşı olan hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq".

# Akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr edilmiş beynəlxalq konfransın açılış mərasimi keçirilib

Bakı Dövlət Universitetində (BDU) akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illiyinə həsr edilmiş "Nəzəri və təcrübi kimyanın müasir problemləri" mövzusunda beynəlxalq elmi konfransın açılışı olub.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, akademik Rəfiqə Əliyeva ölkəmizdə kimya elminin inkişafına böyük töhfələr verib. Görkəmli alimin dünyanın nüfuzlu elmi jurnallarında dərc olunmuş məqalələri, fundamental monoqrafiyaları, mühüm elmi nəticələri kimya elmi sahəsində ölkəmizin adının tanıdılmasında müstəsna rol oynayıb. Rəfiqə Əliyeva eyni zamanda onu tanıyanların yaddaşına vətənpərvər ziyalı, ölkənin ictimai həyatında fəal iştirak edən, cəsarətli mövqeyi, xeyirxahlıq missiyası ilə seçilən parlaq bir şəxsiyyət kimi həkk olunub: "Akademik Rəfiqə Əliyeva ziyalılığı, kübarlığı, müdrikliyi, xalqına və Vətəninə bağlılığı, dövlətinə sədaqəti ilə onu tanıyanların hər biri üçün insanlıq nümunəsidir".

Rektor qeyd edib ki, akademik Rəfiqə Əliyeva uzun illər ölkəmizdə kimya sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb, onun rəhbərliyi ilə 2 doktorluq və 20 namizədlik dissertasiyası müdafiə edilib. Akademik Rəfiqə Əliyeva 2 monoqrafiya, 33 dərslik və dərs vəsaitinin, 20 patentin və 520-dən çox məqalənin müəllifidir. Moskva Dövlət Universitetinin Analitik kimya kafedrasının əməkdaşları tərəfindən nəşr olunmuş 2 cildlik "Analitik kimyanın əsasları" və "Analitik kimyadan məsələ və suallar" kitabları məhz akademik Rəfiqə Əliyevanın rəhbərliyi ilə Azərbaycan dilinə tərcümə edilib. Onun rəhbərliyi ilə Ekoloji kimya və ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyasında müxtəlif illərdə ətraf mühitin çirklənməsi qiymətləndirilib, zərərli və ağır metalların qatılaşdırılaraq ayrılmasının yeni, ucuz və iqtisadi cəhətdən əlverişli metodikaları işlənilib hazırlanıb. Akademik Rəfiqə Əliyevanın səmərəli elmi-pedaqoji və ictimai fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Alim 2000-ci ildə "Əməkdar elm xadimi" adına layiq görülüb, 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub. Eyni zamanda görkəmli alim akademik "Yusif Məmmədəliyev adına" mükafata layiq görülüb. 2003-2004-cü tədris ilində akademik Rəfiqə Əliyeva Elm və Təhsil Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunub, O, 2005-ci ildə BDU-nun təsis etdiyi "İlin alimi" fəxri adına layiq görülüb. Alimin müəllifi olduğu "Ekologiya" və "Ümumi ekologiya" adlı dərs vəsaitləri Elm və Təhsil Nazirliyinin təsis etdiyi "Həsən Əliyev adına" mükafata layiq bilinib.

Akademik Rəfiqə Əliyeva yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı kimi hər zaman insanlara yaxşılıqlar edib. Xeyirxah, nəcib əməllərin sahibi olub. Bütün bu keyfiyyətlər, ilk növbədə onun mənsub olduğu ailədən, soy-kökdən irəli gəlir. Akademik Rəfiqə Əliyevanın əziz və unudulmaz xatirəsi öz taleyini bağladığı və inkişafına böyük töhfələr verdiyi Bakı Dövlət Universitetində həmişə hörmətlə və ehtiramla yad edilir. Görkəmli alimin elmi məktəbi onun davamçıları tərəfindən daha da inkişaf etdiriləcək.

Rəfiqə Əliyevanın qızı, BDU-nun Ekoloji kimya kafedrasının müdiri professor Sevinc Hacıyeva onun əsl pedaqoq, elm fədaisi, gözəl ana, mübariz vətəndaş olduğunu bildirib. Qeyd edib ki, ömrünün 60 ilini Bakı Dövlət Universitetinə həsr edən Rəfiqə Əliyeva bütün tələbələrinin sevimli müəllimi olub: "Akademik Rəfiqə Əliyeva analitik kimya elmində böyük məktəb yaradıb. Hazırda onun tələbələri Azərbaycanda və bir çox ölkələrdə uğurla çalışırlar. Rəfiqə Əliyeva qürurlu, məğrur, prinsipial bir şəxsiyyət idi. Rəfiqə Əliyeva Ümummilli Liderimiz Heydər Əliyevin bacısı və silahdaşı kimi bu adı şərəflə daşıyırdı. O, Azərbaycanda ekoloji kimya elminin təməlini qoyan və inkişaf etdirən böyük alimdir. Mən fəxr edirəm ki, anamın yolunu davam etdirirəm".

Daha sonra türk dünyasının fəxri, dünyaşöhrətli alim, Nobel mükafatçısı Əziz Səncərin konfrans iştirakçılarına məktubu oxunub.

Baş nazirin müavini Əli Əhmədov çıxışında akademik Rəfiqə Əliyevanın universitet alimləri arasında böyük nüfuza malik olduğunu xatırladıb. Bildirib ki, akademik Rəfiqə Əliyeva Azərbaycan elminin, təhsilinin, BDU-nun inkişafında misilsiz xidmətlər göstərib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov akademik Rəfiqə Əliyevanın zəngin bioqrafiyasına diqqət çəkərək onun böyük alim, yüksək intellekt sahibi və tələbkar insan olduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov isə akademik Rəfiqə Əliyevanın nümunəvi alim, pedaqoq, ana olduğunu, Azərbaycan elminin, təhsilinin inkişafına böyük töhfələr verdiyini bildirib. O vurğulayıb ki, ümumtəhsil məktəblərinin "Kimya" dərsliklərinə akademik Rəfiqə Əliyevanın tədqiqatlarına dair xüsusi mövzular salınıb.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev isə diqqətə çatdırıb ki, akademik Rəfiqə Əliyevanın neft-qazla çirklənmiş ərazilərin ekologiyasının qorunmasında böyük xidmətləri var: "Rəfiqə Əliyeva neft emalı zavodlarında müasir laboratoriyaların qurulması zamanı çox ciddi ekoloji tələblər qoyurdu. Azərbaycanın neft-kimya, qaz-kimya sənayelərinin inkişafında Rəfiqə Əliyevanın töhfələri böyükdür".

Sonra "Sağlamlıq və Ekologiya" Beynəlxalq Elmlər Akademiyasının prezidenti akademik Valter Koflerin BDU-nun rektoru Elçin Babayevə təbrik məktubu səsləndirilib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova akademik Rəfiqə Əliyevanın görkəmli alim, pedaqoq, nümunəvi ana olmaqla yanaşı, hər zaman ictimai-siyasi proseslərin önündə olduğunu vurğulayıb. O, Yeni Azərbaycan Partiyasının qurucularından, Ümummilli Liderimiz Heydər Əliyevin ən yaxın silahdaşlarından biri idi. Rəfiqə Əliyeva müasir Azərbaycan qadın hərəkatının öncül simalarından biri kimi tanınır.

ICESCO Baş direktorunun elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif isə akademik Rəfiqə Əliyevanın anadan olmasının 90 illik yubileyinə həsr olunmuş konfransın kimya elminin inkişafına böyük töhfələr verəcəyinə əminliyini bildirib. Qeyd edib ki, ICESCO ilə BDU-nun çox uğurlu əməkdaşlığı var. O, konfransda iştirakdan məmnunluğunu qeyd edib.

Professor Dilarə Seyidzadə isə akademik Rəfiqə Əliyeva ilə bağlı xatirələrini bölüşüb, onun dəyərli alim, elm fədaisi olmaqla yanaşı, xeyirxah qəlbə sahib gözəl ailə sahibi, əsl dost olduğunu diqqətə çatdırıb.

Akademik Rəfiqə Əliyevanın qızı, dosent, Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova beynəlxalq konfransın təşkilinə görə minnətdarlığını bildirib. O, Rəfiqə Əliyevanın hər zaman ailəsinin qürur mənbəyi, tələbələrinin sevimlisi olduğunu vurğulayıb: "Rəfiqə Əliyeva nəcib, humanist ruha malik şəxsiyyət idi. Onun xatirəsi xalqımızın, tələbələrinin qəlbində əbədi yaşayacaq".

Qeyd edək ki, iki gün davam edəcək konfransın təşkilində əsas məqsəd müasir kimyanın fundamental və tətbiqi sahələri üzrə dünyanın müxtəlif universitet və elmi-tədqiqat institutlarında fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, əldə edilmiş ən mühüm nəticələri müzakirə etmək, yeni prioritet istiqamətləri müəyyənləşdirmək, bu sahədə elmi nailiyyətləri və təcrübələri paylaşmaq, habelə əldə edilən nəticələrin təcrübədə tətbiqinin forma, metod və yollarını tapmaq və gənclərin elmə olan marağını artırmaqdır.

Türkiyə, Pakistan, Almaniya, Ukrayna, Böyük Britaniya, Belçika, Portuqaliya, Litva, Çin, Hindistan, Vyetnam, Polşa, Özbəkistan, Rusiya, Qazaxıstan, Gürcüstan kimi xarici ölkələrdən, ölkəmizin bir çox ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçıların iştirakı ilə keçirilən konfransda analitik kimya, ekoloji kimya və ətraf mühitin mühafizəsi, kimyanın tədrisi metodikası, perspektivli materialların sintezi, fiziki kimya və qeyri-üzvi materialşünaslıq kimi sahələr üzrə məruzələr dinləniləcək, müzakirələr aparılacaq. Konfransda müxtəlif ölkələrdən olan dəvətli məruzəçilərin bu sahənin problemləri və alınmış ən son nəticələr üzrə məruzələri də dinləniləcək.

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ

## 2022-ci ilin oktyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 3,20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 7,14, 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# YAP-ın nümayəndə heyəti İCAPP-ın xüsusi konfransında iştirak edib

Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramin Məmmədov və YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin aparıcı məsləhətçisi Taleh Həsənzadə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Koreya Respublikasının hakim Xalqın Gücü Partiyası və müxalif "Minjoo" (Demokratik) Partiyasının birgə evsahibliyi ilə sentyabrın 28-30-da Koreyanın Seul şəhərində keçirilən "Siyasi partiyalar vasitəsilə Asiyanın siyasi inkişafı" mövzusunda xüsusi konfransında iştirak ediblər.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 13 ölkədən 23 siyasi partiyanın 60-a yaxın nümayəndəsinin qatıldığı konfransın "Demokratiyanın inkişafında siyasi partiyaların rolu" mövzusunda birinci sessiyasında çıxış edən Ramin Məmmədov formalaşmaqda olan yeni dünya nizamının siyasi partiyalar qarşısında meydana çıxardığı çağırışlardan bəhs edib, müasir dövrdə partiyaların yalnız təmsil etdikləri cəmiyyətin gözləntilərinə deyil, bütövlükdə qlobal dünyanı narahat edən təhlükə və təhdidlərə adekvat ideyalar sistemi təqdim etməli olduqlarını vurğulayıb. Azərbaycan siyasi sistemində partiyaların rolundan bəhs edən R.Məmmədov çoxpartiyalı sistemin demokratik cəmiyyət quruculuğunun vacib elementi kimi milli inkişaf strategiyasının əsas parametrlərindən biri olduğunu söyləyib.

O, həmçinin 44 günlük Vətən müharibəsinin yaratdığı yeni reallıqların, Cənubi Qafqazda təhlükəsizlik konfiqurasiyasının əhəmiyyətli şəkildə dəyişməsinin Azərbaycanda siyasi münasibətlər sisteminin məzmununa gətirdiyi yeniliklərdən bəhs edib. R.Məmmədov deyib ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Cənubi Qafqazda sülh çağırışlarının aktuallığını həm ölkə əhalisinə, həm də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağın vacibliyini nəzərə alaraq bu məsələni ideoloji prioritetlər siyahısına daxil edib. Bu kontekstdə Yeni Azərbaycan Partiyası kifayət qədər ciddi və həyati əhəmiyyət daşıyan bir missiyanı yerinə yetirir. YAP milli siyasi qüvvələrin konsolidasiyasına və beləliklə də, ümumi mənafelərə xidmət edən siyasi dialoqun təşəbbüskarı rolunu uğurla həyata keçirir. Bu təşəbbüsün ideya-siyasi məzmunu həm də Cənubi Qafqazda əməkdaşlıq mühitinin yaradılmasını nəzərdə tutur.

R.Məmmədov həmçinin "İctimai seçki sistemi və siyasi partiyaların inkişafı" mövzusunda ikinci sessiyanın moderatoru olub.

Tədbir Seul Bəyanatının qəbul edilməsi ilə başa çatıb.

# Azərbaycan-Pakistan Texnologiya Forumu

Sentyabrın 29-da Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi və Pakistan-Azərbaycan İqtisadi Əməkdaşlıq Palatasının (PAKAZCHAM) təşkilatçılığı ilə Azərbaycan-Pakistan Texnologiya Forumu keçirilib.

RİNN-dən AZƏRTAC-a bildirilib ki, foruma hər iki ölkədən müxtəlif sahələri təmsil edən şirkətlərin nümayəndələri qatılıblar.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev çıxışında Azərbaycan və Pakistan arasında qarşılıqlı etimada, dəstəyə və faydalı əməkdaşlığa əsaslanan güclü tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu, bu il diplomatik münasibətlərimizin qurulmasının 30 illiyinin qeyd edildiyini bildirib.




Nazir əlavə edib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "yaradıcı və innovativ cəmiyyət"in qurulmasının zəruriliyi ifadə olunub: "Bu vizyonu həyata keçirmək üçün bizə innovasiya ekosistemi lazımdır. İxtiralar olmadan isə yenilik mümkün deyil. Beləliklə, sağlam təməl üzərində universitetlərin tədqiqat və inkişaf imkanları ilə dəstəklənən, elm və texnologiyaya əsaslanan güclü sənayeyə ehtiyac var. Biz Pakistanın texnologiya şirkətlərini Azərbaycanda tədqiqat mərkəzləri yaratmağa dəvət edirik".

Qeyd olunub ki, biznes imkanlarının araşdırılması davamlı bir prosesdir. Bu, müntəzəm məlumat mübadiləsini və biznes icmaları arasında birbaşa əlaqələrin təşviqini tələb edir. Azərbaycan-Pakistan Texnologiya Forumu bu cür məlumat mübadiləsini təşviq etmək və yeni işgüzar münasibətləri asanlaşdırmaq üçün effektiv platforma rolunu oynayacaq.

Forumda AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bilal Haye, PAKAZCHAM-ın prezidenti Xürrəm Bhatti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Pakistan Proqram İxrac Şurasının Kommersiya direktoru Zeeşan Rehman Xattak çıxış edib.

Tədbir çərçivəsində Azərbaycan və Pakistanın texnologiya şirkətləri tərəfindən təqdimatlar nümayiş olunub.

Forum B2B və B2G formatında görüşlərlə davam edib.

# Hərbi Hava Qüvvələrində döyüş atışlı təlim keçirilib



Bu ilin döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrinin helikopter bölmələri ilə döyüş atışlı təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin ssenarisinə uyğun olaraq helikopter bölmələri bazalanma aerodromlarından uçuşlar edərək poliqonda şərti düşmənin yerüstü hədəflərinin məhv edilməsi, eləcə də aviasiya vasitələrinin terror-diversiya qruplarından mühafizəsi üzrə tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

Döyüş fəaliyyətlərinin təşkili, o cümlədən qüvvələrin döyüşdə idarə olunması üzrə helikopter ekipajları və desant heyətlərinin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Laçında möhtəşəm quruculuq başlayır

**Mənfur ermənilərin xarabazara çevirdiyi Laçının da, bu dağlar şəhərinin azadlığı uğrunda döyüşüb həlak olmuş nakam taleli şəhid ruhlarının da, hər il doğma ocaqlarına dönəcəyi günü səbirsizliklə gözləyən bütün laçınlıların da ən sevincli, fərəhli günləridir.**

Çoxdan idi ki, Laçın və laçınlılar bu şərəfli, qürurlu günün həsrətindəydilər. Hamı Müzəffər Ali Baş Komandanın müqəddəs bayrağımızı Laçın şəhərində qaldıracağı günü gözləyirdi.

Bu hadisəni 44 günlük zəfər müharibəsindən sonra siyasi qələbəmizin təntənəsi də hesab etmək olar. Ermənistan üçün dəhliz deyib hay-haray saldıqları Laçın şəhəri, Sus və Zabux kəndləri onların kül halında közərən son ümid yerləri idi. Bu yerlər "bəlkə də qaytardılar" xülyasının nüvəsi idi. Amma bir güllə atmadan bu ərazilərimizi də mənfur düşməndən geri aldıq. Laçın şəhərində Azərbaycan bayrağının Müzəffər Ali Baş Komandan tərəfindən ucaldılması, xilaskar Prezidentimizin "Fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi olaraq dalğalanacaq! Biz burada əbədi olaraq yaşayacağıq. Yaşasın Laçın! Yaşasın Azərbaycan!" kəlmələri laçınlıların dillərində əzbər, ürəklərində təpər oldu. Bu hadisənin sevincini yaşayan, doğma torpaqlarına qayıdacağı günü həsrətlə gözləyən bir qrup laçınlı sevincini bizimlə bölüşərək Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Zabux kənd sakini Tahir Sabir oğlu Hüseynov öz sevincini belə ifadə etdi:

- Müzəffər Ali Baş Komandan İlham Əliyevin Laçının küçələri ilə gəzdiyini görəndə, üçrəngli bayrağımızı Laçın şəhərində ucaldanda gözyaşıma hakim ola bilmədim. Hönkür-hönkür ağladım. Gözlərim önündə bir anlığa 1992-ci ilin məşum may günləri canlandı. O zaman canımızı götürüb o doğma torpaqlardan, gözəl diyarımızdan qaçırdıq. Gözümüz onda da yaşlı idi. Acizliyimizdən, yiyəsizliyimizdən utanıb ağlayırdıq. Arzularımız, xəyallarımız tar-mar olmuşdu. İndi isə sevincdən, fərəhdən, dövlətimin gücünü, qüdrətini, Prezidentimin hünərini, qətiyyətini görərək gözlərim yaşarır. Həsrətə son qoyulduğunu, o doğma torpaqlara qayıdışın anbaan yaxınlaşdığını görüb duyğulanıram. Mən bir an da olsun o torpaqlara qayıdacağımıza şübhə etmirdim. Ümidlə yaşayırdım. Prezidentimizin apardığı siyasətə inanırdım, güvənirdim. Bilirdim ki, nə vaxtsa geri qayıdacağıq. Bircə arzum var: tezliklə doğma torpaqlarda abadlıq-quruculuq işlərində qalib ölkənin vətəndaşı olaraq iştirak etmək.

Laçın rayon sakini Aslan Haqverdi oğlu İsgəndərov da sevincini bizimlə bölüşərkən dedi:

- Çoxdan bəri həsrətlə gözlədiyimiz günü - Müzəffər Ali Baş Komandanın bayrağımızı Laçın şəhərində yüksəltdiyi məqamı seyr etdiyim anlar həyatımın ən qürurlu, yaddaqalan anları oldu. Özümü dünyanın ən xoşbəxt bəndələrindən hesab etdim. İndi doğulub, boyüdüyüm torpaqlarda mənim müqəddəs bayrağım dalğalanır. Düşmənin ayağı birdəfəlik Laçından kəsildi. Bu, möhtəşəmdir. Min illərdir ki, murdar düşmən Laçın torpağının, Susun, Zabuxun, Laçın şəhərinin bağrını yağır etmişdi. Bəd niyyətlərini həyata keçirmək üçün bizim torpaqlardan gəlib keçirdilər. İnanıram ki, tezliklə Laçın gülüstana çevriləcək. Mən dövlətdən nə ev, nə iş istəyirəm. Bircə tezliklə o torpaqlara qayıtmağımızı gözləyirəm. Bizə bu sevinci yaşadan, 30 illik düşmən tapdağı altında olan torpaqları qansız, qadasız qaytaran xilaskar Prezidentimizə minnətdaram.

Laçın şəhər sakini Gülnar Ağalar qızı Hüseynova isə bizimlə söhbət zamanı gözyaşlarına hakim ola bilmədi:

- Ömrümün ən fərəhli günlərini yaşayıram. Prezidentimizin Laçın şəhərində bayrağımızı qaldırdığını efirdə görəndə özözümə dedim ki, bundan sonra daha yaşamasam da olar. Ermənidən qısasımızı aldıq, torpaqlarımız uğrunda döyüşüb şəhid olanların qanı yerdə qalmadı, bu, mənə bəsdir. Laçında ucalan bayraq Azərbaycan Ordusunun qüdrətinin, Azərbaycan Prezidentinin qətiyyətinin təcəssümüdür. Ermənilərin o torpaqlardan könüllü çıxmaq istəmədiyini yaxşı bilirdik. Onlar sərhədlərimizdə, Laçında, Kəlbəcərdə müxtəlif vaxtlarda təxribat törətməklə "hələ ölməmişik, varıq" demək istəyirlər. Azərbaycan Ordusu onları bir daha əzdi. Onları Laçın şəhərini, Sus və Zabux kəndlərini boşaltmağa da məcbur etdik. Çox qürurluyam. Ordumuzla, bu ordunu formalaşdıran, onu qələbəyə aparan Ali Baş Komandan İlham Əliyevlə fəxr edirəm. Dövlətimin gücünü, qüdrətini görüb iftixar duyuram.

Zabux kənd sakini, ömrünün 73-cü ilini yaşayan Saday İsa oğlu Hüseynov bizimlə söhbəti zamanı dedi:

- Laçından çıxanda fikirləşirdim ki, bir də bu torpaqlara qayıda bilməyəcəyik. Düşünürdüm ki, bizi evsizlik, qaçqınlıq öldürməsə də, yurd həsrəti, üstümüzdəki "məğlub" damğasının acısı öldürəcək. Amma yanılmışdıq. Doğma yurdumuzun düşməndən azad olunduğu günü gördük. Çox şükürlər olsun, xilaskar Prezidentimiz, Müzəffər Ali Baş Komandan bizə bu sevinci də yaşatdı. Doğma torpaqlarımıza dönüb yenidən orada yaşayacaq, qurub-yaradacağıq. Qələbəmizin sevinci, ordumuzun qüdrəti, iftixar duyulacaq görülən işlər mənə yeni həyat verdi. Mən bizə bu sevinci yaşadan əsgərlərimizə, bu fərəhli anları bağışlayan Prezidentimizə minnətdaram.

Zabux kənd sakini Elsevər Allahverdi oğlu Əliyev Laçın şəhərində müqəddəs bayrağımızın ucaldılmasına belə münasibət bildirdi:

- Müzəffər Ali Baş Komandan Laçın şəhərində bayrağımızı ucaldanda elə zənn etdim ki, bu həm də bizim arzularımızın, Laçında qoyub gəldiyimiz xəyallarımızın, Laçınsız keçən itirilmiş illərimizin qaytarılmasıdır. Prezidentimiz indi öz əlləri ilə onları bizə qaytarır. Bütün zabuxlular kimi, mən də həsrətlə doğma torpaqlara qayıdacağım günü gözləyirəm. Bizə keçmişimizi qaytaran, işıqlı, xoşbəxt gələcəyimizi bəxş edən qalib Azərbaycan Ordusunun qurucusu, Müzəffər Ali Baş Komandana minnətdarlığımızı bildirirəm.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# 30 sentyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.

Müdafiə Nazirliyi məlumat yayaraq bildirir ki, sentyabrın 27-dən 30-dək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tank əleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



❖❖❖

Cəbhənin Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları bölmələrimiz tərəfindən məhv edilir.

Səhər saat 08:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur. Mülki infrastruktura ziyan dəyir və yaralananlar olur.

Düşmənin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini də atəşə tutmağa başlayır.

❖❖❖

Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 "S-300" zenit-raket qurğusu sıradan çıxarılır.

❖❖❖

İtirilmiş mövqeləri geri qaytarmaq üçün Suqovuşan istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən səhər saatlarından başlayaraq hücuma cəhd göstərir. Düşmənin bu fəaliyyətinin qarşısı alınır və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilir.

❖❖❖



Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkirlər.

Hər bir yaralı əsgərin vəziyyəti ilə maraqlanan İlham Əliyev deyir ki, həkimlər onların tezliklə sağalıb normal həyata qayıtmaları üçün əllərindən gələni edəcəklər.

Yaralılar isə tezliklə sağalıb yenidən döyüş bölgəsinə getmək, Vətən uğrunda haqlı savaşlarını davam etdirmək niyyətində olduqlarını bildirirlər. Ali Baş Komandan isə bir daha vurğulayır ki, bu savaş tezliklə qələbəmizlə başa çatacaq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Baş sərkərdə döyüşlərin gedişatından da söz açaraq deyir ki, artıq dördüncü gün davam edən savaşda Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.

❖❖❖

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Prezident İlham Əliyevə telefonla zəng edir.

Təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edən Şarl Mişel münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirir.

İlham Əliyev isə bir daha əsl həqiqətləri söyləyir və işğalçının hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirir.

❖❖❖

Müdafiə Nazirliyi döyüşlərə qatılmaq istəyən könüllülərə müraciət edir. Müraciətdə bildirilir ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz nazirliyə müraciət edərək ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildiriblər.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır. Bildirilir ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

❖❖❖

Bölmələrimizin mövqelərini atəşə tutan düşmən topları dəqiq atəşlə məhv edilir.

Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istəyir. Köməyə gələn ehtiyat qüvvələr tərəfimizdən aşkar olunaraq atəş zərbəsi ilə darmadağın edilir.

❖❖❖

Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq edir.

❖❖❖

Son saatlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "OSA" zenit-raket kompleksi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını və 2 ədəd D-20 haubitsa-topu məhv edilir.

Azərbaycan Ordusunun bölmələri tərəfindən saat 17:30-dək düşmənin 2 ədəd "OSA-AKM" zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 "Uraqan" yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 4 ədəd "D-20" haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilir və sıradan çıxarılır.

❖❖❖



Suqovuşan istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilir.

❖❖❖

Axşam saatlarında keçirilən döyüş əməliyyatları nəticəsində düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Ermənistan: məğlubiyyətin xronikası

❖❖❖

Ermənistanın "4rd.am" saytı yazır ki, son döyüşlərdə erməni tərəfindən həm canlı, həm də hərbi texnika itkisi həddindən artıq böyük olub.

Ermənistan ordusunun mindən çox əsgərinin öldürüldüyünü diqqətə çatdıran sayt işğal altındakı Şuşa hospitalındakı etibarlı mənbəyə istinadən qeyd edir ki, bura yüzlərlə yaralı gətirilib: "Öldürülənlər arasında əsgərlərlə yanaşı, kiçik və böyük rütbəli zabitlər də var. Avtomobillər, ağır zirehli texnika,artilleriya qurğuları məhv edilib. Qeyri-rəsmi məlumatlara görə, yüzlərlə hərbi texnika sıradan çıxıb".



"Sputnik Armeniya"saytının Xankəndidən hazırladığı reportajda insanların vahimə içərisində olduğu yazılır. Qeyd olunur ki, Xankəndi sakinləri Qarabağ münaqişəsi zonasında vəziyyət gərginləşdikdən sonra gecəni zirzəmilərdə keçirirlər.

Son iki gündə vəziyyət daha da gərginləşib. Xankəndidəki məktəblərdən birinin müəllimi Qayane Muradyan sosial şəbəkədəki paylaşımlardan birində deyib ki, Azərbaycan tərəfinin endirdiyi zərbələr onları qorxuya salıb: "Çox narahatıq. Başqa heç bir şey haqqında düşünə bilmirik. Ön cəbhədəki qohumlarımız vəziyyətin olduqca gərgin olduğunu, hər gün əsgərlərimizin öldürüldüyünü deyirlər. Bütün bunlar bizim psixikamıza təsir göstərir".



❖❖❖

"İravunk"qəzeti isə erməni əhalisinin təşviş içində olduğunu, evlərini kütləvi şəkildə tərk etdiyini diqqətə çatdırıb: "Əhali digər təhlükəsiz yerlərə axın edir. Xankəndidən böyük köç başlayıb. Qarabağdakı rejim əhalinin evlərini tərk etməsinə maneələr yaratmır. Gedənlər postlarda saxlanılmır. Əsgərlər fərarilik edirlər. Hakimiyyətin və Qarabağ müharibəsi veteranlarının çağırışına baxmayaraq, gənclər orduya getmək istəmirlər. Onlar müxtəlif bəhanələrlə döyüşməkdən imtina edirlər. Yeganə ümid Qarabağ müharibəsi veteranlarınadır. Amma son məlumatlar göstərir ki, heç Qarabağ müharibəsi veteranları da vuruşmaq niyyətində deyillər. Çünki budəfəki döyüşlər əvvəlkindən çox fərqlidir. Bunu itkilər barədə ermənilərin etirafı da təsdiq edir".

Rusiyanın "İzvestiya" qəzetinin Xankəndidəki reportyoru isə yazır ki, buradan ermənilərin kütləvi və kortəbii şəkildə köçürülməsi baş verir, insanları kütləvi şəkildə Yerevana göndərirlər. "Onları elə birbaşa göndərirlər, heç bilmirlər ki, orada qohumları var, ya yox. Lakin deyirlər ki, onları hökmən orada kimsə qarşılayacaq. Polis yolüstü Yerevana gedən avtomobilləri saxlayır və onlar ailələri maşınlarına mindirib tamamilə pulsuz Yerevana aparırlar".

❖❖❖

Baş verənlərlə bağlı "4rd.am" saytının hazırladığı reportajda bildirilir ki, Ermənistan hospitalları yaralılarla doludur: "Dərmanlar çatışmır, nəqliyyat vasitələri yaralıları daşımaq üçün azlıq edir. Yaralıların gətirildiyi Yerevanda bir qadın hönkür-hönkür ağlayırdı.O, "Nə üçün?" deyə soruşur və "cəhənnəm olsun bu quldurlar, oğrular, mənim oğlumu öldürdülər" - deyə qışqırırdı. Sonradan bəlli oldu ki, o, Azərbaycanı deyil, Paşinyan hakimiyyətini nəzərdə tuturdu. Mən ağlayan qadından artıq heç nə soruşa bilmədim. O, elə hey, "Heyvanlar, əclaflar mənim oğlumu öldürdülər" - deyə qışqırırdı".

Reportajı hazırlayan erməni jurnalist həmin qadının Ruzanna Kirokasyan adlı rəfiqəsindən baş verənlər haqda soruşur: "Rəfiqəsi deyir ki, onun oğlu bazar günü günorta saatlarında yaralanıb. Onu Yerevana hospitala gətiriblər. Hər şey yaxşı imiş, amma dərmanın yoxluğuna və həkimlərin səhlənkarlığına görə oğlu ölüb".



Bu arada Ermənistanda mövcud olan hərbi vəziyyətlə əlaqədar 18-55 yaş arasında kişilərin ölkədən çıxışına məhdudiyyət qoyulub. Ermənistan ordusunun hərbi qulluqçusu Qrant Saaryan sosial şəbəkədə fəaliyyət göstərən radiolardan birinin canlı yayımda qonağı olub. O, Paşinyana müraciətdə bildirib: "Cənab baş nazir, Qarabağ bizim ərazimiz deyil. Ora heç sənin də ərazin deyil. Bu, Azərbaycanın torpağıdır və biz başqasının torpağı uğrunda ölmək istəmirik". Daha sonra əlavə edir ki, erməni hərbçiləri Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə Azərbaycana keçərək, Qərb ölkələrində sığınacaq alırlar: "Ən pis halda onlar qonşu Gürcüstana sığına bilirlər".

❖❖❖



Ermənistan tərəfi cəbhədə davam edən hərbi əməliyyatlar fonunda daha Azərbaycan torpaqlarında qala bilməyəcəklərini başa düşərək şələ-külələrini yığışdıraraq oranı birdəfəlik tərk etməyə hazırlaşırlar. Bununla bağlı "Joxovurd" qəzeti yazır ki, cəbhə zonasında davam edən döyüşlərdən qaçan ermənilər atəşin dayandırılmasından sonra da geri qayıtmaq istəmirlər. Xankəndi sakini Artak Allahverdiyan deyir ki, o, tezliklə Rusiyaya getmək niyyətindədir: "Ümidimiz Rusiyadır. İnanıram ki, oradakı qardaşlarımız bizi qəbul edəcək, tək qoymayacaqlar".

Rusiyanın "kadara.ru" internet-portalı Qarabağda gedən döyüşlərdə ermənilərin "çox böyük itkiləri" barədə bildirir. Sayt Xankəndidəki mənbəyə - qondarma "dqr" güc strukturlarının əməkdaşına istinad edir: "Çox böyük itkilərimiz var. Hospitallar yaralılarla doludur. Qarşı tərəf kütləvi şəkildə aviasiya, artilleriya, raket silahları tətbiq edir. Stepanakertə (Xankəndi-red.) dünyanın hər yerindən çoxsaylı könüllülər gəlir, bu, şişirtmə deyil".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Heydər Əliyev Mərkəzində "Dünya xəzinələri - Azərbaycan" filminin təqdimatı olub

Sentyabrın 29-da Azərbaycanın qədim və zəngin tarixini, mədəniyyətini təbliğ edən yeni layihə ictimaiyyətə təqdim edilib.






Heydər Əliyev Fondu və bp şirkətinin birgə tərəfdaşlığı ilə hazırlanan "Dünya xəzinələri - Azərbaycan" ("Treasures of the World - Azerbaijan") filminin Heydər Əliyev Mərkəzində premyerası olub.

AZƏRTAC xəbər verir ki, Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva filmin premyerasını izləyib.

Bakı, Şuşa, Qobustan və Şəkinin ecazkar və əsrarəngiz tarixini, mədəni xəzinələrini təqdim edən film Azərbaycanın zəngin mədəni irsinin beynəlxalq miqyasda təbliğinə yönəlib.

Təqdimat mərasimində çıxış edən bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz ekran əsərinin çox sayda insanın dəstəyi ilə ərsəyə gəldiyini deyib. Qəri Counz Azərbaycanın mədəni irsinin bu cür tədqiq olunması və dünya ictimaiyyətinə mükəmməl şəkildə təqdim edilməsində əməyi olan şəxslərə minnətdarlığını bildirib. "Azərbaycandakı fəaliyyətimizin 30-cu ildönümündə Azərbaycanın beynəlxalq miqyasda təbliğinə yönələn bu böyük töhfəni verə bilməyimizdən qürur və şərəf duyuruq. Ümid edirik ki, Azərbaycanı dünyanın mədəniyyət xəzinəsinin bir incisi kimi təqdim edən filmdən milyonlarla insan böyük zövq alacaq".

Qəri Counz həmçinin vurğulayıb ki, bu film bp üçün Azərbaycanın qonaqpərvərliyinin dünyaya nümayiş etdirmək baxımından gözəl fürsətdir. Heydər Əliyev Fonduna minnətdarlığını bildirən Q.Counz bp və fondun birgə bir sıra sosial layihələr ərsəyə gətirdiyini deyib. O, Arzu Əliyevaya və Bakı Media Mərkəzinə filmin ərsəyə gəlməsindəki yüksək texniki dəstəyə görə təşəkkürünü bildirib.

Premyeradan öncə filmin müəllifi, tarixçi, yazıçı, aparıcı və məşhur "Dünya xəzinələri" sənədli filmlər silsiləsinin ssenari müəllifi və təqdimatçısı professor Bettani Hyuz da çıxış edib.

"Burada sizinlə olmaq çox xoşdur. Heydər Əliyev Fondu bizi inanılmaz dərəcədə dəstəklədi", - deyən professor Bettani Hyuz Azərbaycan kimi gözəl diyar haqqında film paylaşmağın gözəl bir iş olduğunu vurğulayıb.

İlk dəfə Azərbaycana tarixçi kimi gəldiyini deyən Bettani Hyuz dünyada ən qədim rəvayətlərin hamısının Cənubi Qafqaza gətirib çıxardığını söyləyib.

"Azərbaycan xalqı qonaqpərvərdir. Azərbaycan qonaqpərvərliyin əsl diyarıdır. Azərbaycanın təbiəti və mədəniyyəti çox zəngindir. Budur insan və təbiət dünyasının möcüzələri: gözəllik, sülh və qonaqpərvərlik", - deyə Bettani Hyuz fikrini yekunlaşdırıb.

Qeyd edək ki, professor Bettani Hyuz Azərbaycanın tarixini və mədəniyyətini araşdırmaq və geniş auditoriyanın marağına səbəb olan filmlərindən birini ölkəmizin möcüzəvi mədəniyyət xəzinəsinə həsr etmək üçün 2022-ci ilin iyun ayında Azərbaycana səfər etmiş və çəkilişlər aparmışdı.



Sonra ekran əsəri nümayiş etdirilib.

Film boyunca Bettani Hyuz Azərbaycanın möhtəşəm təbiətini, mədəniyyətini heyranlıqla təqdim edir: yerin altından çıxan qazın alovlarından tutmuş on min illərlə yaşı olan qədim qayaüstü rəsmlərədək. Onun fikrincə, əfsanəvi İpək yolunun möcüzələri bu diyarın təkcə ticarət deyil, həm də fikir mübadiləsinin aparıldığı yer olmasındadır. Qafqazın unikal mədəni irsini burada kəşf etmək mümkündür.

Qeyd edək ki, tamaşaçılar filmdə Şuşanın gözəlliyinin əks olunduğu kadrları alqışlarla qarşıladılar. Müəllif bir tərəfdən, Xurşidbanu Natəvanın humanist motivli poeziyasına diqqət çəkir, digər tərəfdən, Vaqifin muzey-məqbərə kompleksinin gözəlliyindən, onun inşa edilməsi tarixindən söz açır, eləcə də şairin poeziyasına toxunur. Cıdır düzünü əks etdirən kadrlar isə Qarabağ atları, çövkən oyunu haqqında maraqlı məlumatlarla müşayiət olunur.

Azərbaycanın özəlliklərindən heyranlıqla danışan müəllif filmin sonunda "Azərbaycanın dünyada misli-bərabəri yoxdur" qənaətinə gəlir.

Qeyd edək ki, film artıq BBC telekanalı vasitəsilə "İpək yolu" və "Odlar Yurdu" adlanan iki hissədə beynəlxalq ictimaiyyətə çatdırılıb. "İpək yolu" adlanan hissənin çəkilişləri Qobustan və Şəkini, "Odlar Yurdu"nun çəkilişləri isə Bakı və Şuşanı əhatə edib.

Film Böyük Britaniyanın "Sandstone Global Productions" şirkəti tərəfindən Bakı Media Mərkəzinin dəstəyi ilə ərsəyə gəlib.

Heydər Əliyev Fondu və bp Azərbaycan auditoriyası üçün filmin Azərbaycan və ingilis dillərində 60 dəqiqəlik tam versiyasını da hazırlayıb. Filmin yerli telekanallarda yayımı nəzərdə tutulur.

# Mingəçevir Dövlət Universiteti "Erasmus+" proqramının qalibi olub

Mingəçevir Dövlət Universitetinin (MDU) koordinatorluğu ilə hazırlanmış və təqdim edilmiş "Azərbaycan ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsi" (Enhancing sustainable entrepreneurial ecosystem in Higher Education Institutions of Azerbaijan - ENGAGE) mövzusunda "Erasmus+" layihəsi Avropa Komissiyası tərəfindən maliyyələşdirmə üçün qəbul edilib. Bununla da MDU koordinator statusunda "Erasmus+" layihəsində qalib gələn ilk region universiteti olub.



Universitetdən AZƏRTAC-a bildirilib ki, layihənin əsas məqsədi Azərbaycanın müvafiq ali təhsil müəssisələrində sahibkarlıq ekosisteminin gücləndirilməsindən, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsindən və innovativ yanaşmanın təkmilləşdirilməsindən ibarətdir. Layihə çərçivəsində reallaşdırılması nəzərdə tutulan tədbirlər ali təhsil müəssisələrində daha çox innovativ ideyaların yaradılmasını, tədris prosesinin məzmununda praktiki komponentlərin artırılmasını, startap fəaliyyətlərinin genişləndirilməsini və universitet-sənaye əməkdaşlığının inkişaf etdirilməsini nəzərdə tutur. Layihənin icrası zamanı Avropa İttifaqı ölkələrini təmsil edən tərəfdaş universitetlərin müsbət təcrübəsi öyrəniləcək, layihədə iştirak edən Azərbaycan ali təhsil müəssisələrinin əməkdaşları üçün çoxsaylı təlimlər təşkil ediləcək.

MDU-nun koordinatorluğu və idarəçiliyi ilə həyata keçiriləcək ENGAGE layihəsi 36 ay ərzində reallaşdırılacaq. Layihənin ilkin büdcəsi 800 min avrodur. Layihənin məzmununun hazırlanmasında Bakı Biznes Universitetinin təcrübəli əməkdaşları da fəal iştirak ediblər.

Layihənin əsas benefisiarları qismində Azərbaycanın 11 ali təhsil müəssisəsi (Mingəçevir Dövlət Universiteti, Bakı Biznes Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Odlar Yurdu Universiteti) nəzərdə tutulub.

Eyni zamanda layihənin Azərbaycandan olan tərəfdaşları sırasında Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (İB) da yer alıb.

ENGAGE layihəsinin 5 Avropa İttifaqı ölkəsini təmsil edən tərəfdaş universitetləri bunlardır: Estoniyadan Tallin Texnologiya Universiteti (Tallin University of Technology), İsveçdən KTH Royal Texnologiya İnstitutu (KTH Royal Institute of Technology), Portuqaliyadan Lissabon Universiteti (University of Lisbon), İspaniyadan Kataloniya Politexnik Universiteti (Polytechnic University of Catalonia), Polşadan WSG İqtisadiyyat Universiteti (WSG University of Economy).

30 sentyabr dünyada ilk kitabın çap olunduğu gündür

# Niyə kitab oxumuruq?!

## Mütəxəssislər bunu ciddi ədəbiyyatın yaranmaması, dil baryeri və texnoloji inkişafla əlaqələndirirlər



İlk kitab çapından beş əsrdən çox vaxt keçir. Yüzilliklər ərzində kitab çapı avadanlıqları, üsulları əsaslı dəyişiblər. İlk dəfə almaniyalı alim İohan Quttenberq tərəfindən 1445-ci il sentyabrın 30-da xristianlığın müqəddəs kitabı "Bibliya" metal lövhələrin köməyi ilə çap olunub.

Təbii ki, kitab çapında əsas məqsəd insanları kitab oxumağa sövq etmək, bu yolla da kitab satışını həyata keçirmək idi. İlk vaxtlar bir kitabın ərsəyə gəlməsi böyük maliyyə vəsaiti, eyni zamanda uzun vaxt, əmək tələb edirdi. Zamanla texnologiyaların inkişafı sayəsində kitab çapı təkmilləşsə də, bu inkişaf kitab oxuyanların sayına əks təsir edirdi, desək yanılmarıq. Çünki texnoloji inkişaf insanları bir-biri ilə ünsiyyətdən, kitab oxumaqdan və bir çox məşğuliyyətlərdən uzaq salırdı. Hətta texnologiyalar sayəsində insanlar tənbəlləşir, bir çox vərdişləri - yazını, kitab oxumağı unudurdular. Bu isə yazı və nitq qabiliyyətinin zəifləməsində özünü göstərirdi.

### Azərbaycanda kitab oxucularının sayı niyə azalıb?

Araşdırmalar göstərir ki, kitab oxumaq yaddaşı gücləndirməklə yanaşı, diqqəti artırır, danışıq və yazı qabiliyyətini yaxşılaşdırır. Bəzən hətta kitab oxumağın stres atmağa, əsəb və gərginliyin azalmasına kömək etdiyi bildirilir. Ən əsası isə, kitablar sayəsində informasiya əldə edir, dünyagörüşümüz genişlənir və söz ehtiyatımız artır.

Əbəs yerə deyil ki, səlis danışığı, sözlərdən yerli-yerində istifadəni məhz mütaliə ilə bağlayırlar. Doğrudur, müasir dövrdə texnologiyanın inkişafi nəticəsində insanlar kitab oxumağa az vaxt ayırır, daha çox internet vasitəsilə informasiya əldə etməyə çalışırlar. Hər iki vasitənin fərqi ondadır ki, kitab oxumaq insanı sakitləşdirir və beyni dincəldir.

Zamanla oxuduğumuz kitabların elektron variantları da ortaya çıxdı və insanlar kompüterdə, mobil telefon, planşetdə kitabları PDF formatında oxumağa başladı. Böyük əksəriyyətin fikrincə, eyni kitab olmasına rəğmən elektron versiya əlimizdə vərəqləyərək oxuduğumuz kitabın yerini vermir. Kompüterdə, telefonda kitab oxumaq gözləri yormaqla yanaşı, sanki insanın fikrini yayındırır. Bir müddət elektron kitablar geniş yayılsa da, onlardan istifadə ənənəvi kitabın yerini vermədi və zamanla "e-book"lardan istifadə azaldı.

Ümumilikdə, Azərbaycanda kitab oxucularının sayının azaldığı, gənclərin kitaba marağının olmadığı vurğulansa da, oxucu sayının azalması əsasən kitab qiymətləri ilə əlaqələndirilir və qiymətlərin heç də qənaətbəxş olmadığı qeyd olunur.

Kitab məhsullarının istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışının üzərində olan əlavə dəyər vergisinin (ƏDV) kitab sənayesinə, qiymətlərə təsirsiz ötüşmədiyi bəlli idi. Amma mayın 13-də Nazirlər Kabineti "İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən kütləvi informasiya vasitələri məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı"nı təsdiqlədi. Qərara əsasən, rulonlarda və ya vərəqlər şəklində qəzet kağızı, müxtəlif ölçü və qramda olan yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton, kitabların cildlənməsi üçün tikilən kağız və karton üzlük, illüstrasiyalı və ya illüstrasiyasız, içində reklam materialı olan və ya olmayan qəzetlər, jurnallar və digər dövri nəşrlər, kitab-şəkillər, rəsm üçün və ya rəngləmə üçün uşaq kitabları, kitablar şəklində çap edilmiş atlaslar, divar xəritələri, topoqrafik planlar da daxil olmaqla, coğrafi və hidroqrafik xəritələr və ya bütün növ analoji xəritələr ƏDV-dən azad edildi.

Bəs ƏDV-nin ləğvi kitab qiymətlərinə necə təsir edib? Ümumiyyətlə, bəhanə edilən qiymətlərin düşməsi insanları başını telefondan qaldırıb kitab oxumağa sövq edəcəkmi?

### "Fəlsəfi, mühakimə tərzini formalaşdıracaq ədəbiyyat yox səviyyəsindədir"

Millli Məclisin İnsan hüquqları komitəsinin üzvü Fazil Mustafa qəzetimizə açıqlamasında deyib ki, ümumiyyətlə, kitab oxucuları ilə bağlı məsələni müəyyənləşdirmək ciddi sosioloji sorğu tələb edir. Deputat ümumilikdə mütaliə səviyyəsinin aşağı olduğunu deyir. O, çevrəmizdə olan insanların oxumağa münasibətini ümumiləşdirərək bu fikrə gəldiyini qeyd edir.

Fazil Mustafa vurğulayır ki, dəqiq rəqəm demək, vəziyyəti izah etmək çətindir. Azərbaycanda mütaliənin azalmasının əsas səbəbi dil baryeri ilə bağlıdır. Çünki səviyyəli ədəbiyyatlar ingilis dilində, nisbətən köhnə ədəbiyyatlar isə rus dilindədir. Lakin tərcümə sahəsi son illərdə xeyli inkişaf edib, hətta yunan-latın dilini orijinaldan tərcümə edən Türkiyə nəşriyyatlarının buraxdığı kitablar da Azərbaycanda yayılmaqdadır. Bununla belə, ədəbiyyat bilgisi yetərli olmayanlar üç dildə normal mətnləri oxumaqda çətinlik çəkirlər. Ona görə də azərbaycandilli nəşrlərə üstünlük verilir.

Deputat bildirir ki, son vaxtlar Azərbaycan nəşriyyatları müəyyən tərcümə ədəbiyyatını nəşr edib, bu sahədə xeyli işlər görüblər. Orijinaldan olmasa belə, əsasən Nobel mükafatı laureatlarının əsərləri tərcümə olunur. Bu da bütövlükdə məsələyə müsbət təsir göstərə bilmir, çünki kitab oxumaq vərdişi orta məktəbdən ənənəyə çevrilməlidir. Onun sözlərinə görə, məktəbdə bunu sistemli şəkildə təlqin edən mexanizm yoxdur. Bu da öz təsirini yuxarı yaş qruplarında göstərməyə başlayır. Digər tərəfdən telefon, planşet və digər vasitələrlə daha çevik, rahat informasiya almaq vərdişi insanları tamamilə öz əsarətinə alıb. Bu da kitaba marağı, dəyəri arxa plana keçirir.

Fazil Mustafa bildirir ki, bəzən insanlar ziyalı və ya çox oxumuş olduğunu göstərmək üçün bir neçə diplomlarının olduğunu deyirlər. Bununla da özlərinin inkişafını, ziyalılığını müəyyən edirlər. Bu da əslində diplomu olub mütaliə etməyənlərin çoxluğunu ortaya qoyur. Deputat düşünür ki, belə məsələlərdə hansı yazıçıya üstünlük verilməsi də zövqlə bağlıdır. Təbii ki, Azərbaycanda istər gənc, istərsə də yaşlı yazarlar arasında müəyyən ədəbiyyat nümunələri yaranır, amma bu ədəbiyyat cəlbedici olmur.

Fazil Mustafa vurğulayır ki, ədəbiyyatın tanıtımı da önəmlidir: "Hansı üslubda yazının daha çox diqqəti cəlb etdiyinə baxmaq lazımdır. Bir sıra yerlərdə daha çox detektiv janrın oxunması ilə fəxr edirlər. Əslində, bu janr çox da maraqlı düşüncə tərzi aşılamır".

Müsahibimizin fikrincə, fəlsəfi, mühakimə tərzini formalaşdıracaq ədəbiyyat yox səviyyəsindədir. Bu da sonrakı mərhələdə düşünən insan obrazının yetişməyini əngəlləyir. Azərbaycanda düşünən insan qıtlığı kifayət qədər özünü hiss etdirməkdədir. Bütün bunlar müzakirə olunub müəyyənləşdirilməlidir ki, hansı çıxış yolu var və prosesi necə tənzimləyə bilərik. Həm də burada məşhurluq da müəyyən rol oynayır. Məsələn, Orxan Pamuk Nobel mükafatı almasaydı, bəlkə də digər ölkələrdə bu qədər məşhurlaşa bilməyəcəkdi. Elə yazıçılar var ki, onlar məhz digər ölkələrdə məşhurlaşandan sonra öz ölkəsində dəyərə malik olurlar. Ən acınacaqlı durum odur ki, bizim yazıçılar beynəlxalq arenada hansısa əsəri ilə təlatüm yarada biləcək bir potensial ortaya qoya bilmirlər. Ancaq daxili auditoriya, daxili mühit üçün nələrsə yazmaq hələ böyük yazıçı olmaq mənasına gəlmir. Görünür, daha çox xarici müəlliflərin əsərlərini oxumaq və dəyər vermək də buradan qaynaqlanır.

### Hazırda daha çox satılan tərcümə kitablarıdır

"Əli və Nino" kitab mağazaları şəbəkəsinin rəhbəri Nigar Köçərli qeyd edir ki, Azərbaycan dilində kitablara marağın artması sevindirici haldır: "Məsələn, əvvəllər rus dilində kitabların satışı 70 faiz təşkil edirdisə, indi bu dildə kitabların satışı azalıb, 40-60 faiz arasındadır. Azərbaycan dilində kitabların satışı isə artır".

Kitab mağazaları şəbəkəsinin rəhbəri deyir ki, pandemiya dövründə dünyada kitab satışları artsa da, təəssüf ki, Azərbaycanda satışda böyük fərq yaranmadı. Əsasən kitaba aidiyyəti olmayan, asudə vaxt keçirmək üçün pazl, nömrələrlə rəngləmə və digər məhsulların satışı artıb. Qonşu Gürcüstanla müqayisədə Azərbaycanda kitab mağazalarının sayı azdır. Gürcüstanda kitab satışı həyata keçirən mağazaların sayı 300-ə yaxın olduğu halda, Azərbaycanda bu say 60-dan çox deyil. Nəzərə alaq ki, Gürcüstanın əhalisi də Azərbaycandan daha azdır.

Nigar Köçərlinin sözlərinə görə, hazırda tərcümə kitabları daha çox satılır. O qeyd edir ki, satışın 80, bəzən 90 faizini digər dillərdən tərcümə olunmuş kitablar təşkil edir. Yerli yazıçıların kitabları satışda üstünlük təşkil etmir. Qiymətlər də kitabın keyfiyyəti, üz qabığı kimi bir sıra amillərdən asılı olaraq 5-15 manat arasında dəyişir.

### Mədəni-mənəvi dirçəlişin tək yolu kitabdır

"Qanun" Nəşrlər Evinin redaktoru, yazıçı Şərif Ağayar qəzetimizin əməkdaşına açıqlamasında deyib ki, Azərbaycanda kitab oxucuları getdikcə artmaqdadır. O, ötən il təşkil edilmiş sərgilərdə bunun şahidi olduğunu deyir.

Şərif Ağayar vurğulayır ki, xarici yazıçılar qədər olmasa da, yerli yazarlara da maraq var. Təbliğat və işi yaxşı qurmaqdan çox şey asılıdır. Həm də kitab elə bir dəyərdir ki, ona münasibətdə heç bir ayrı-seçkilik olmamalıdır. Hamı çəkici eyni zindana döyməlidir. Xüsusən mətbuat və daha çox televiziyalar bu cür tədbirlərdə aktiv olmalı, oxucunun lazımınca məlumatlandırılmasına və kitab üçün evdən çıxıb gəlməsinə stimul verməlidir. Lap kitab almayan belə, ailəsini, yaxınlarını götürüb heç olmasa bir dəfə sərgidə iştirak etməlidir. Adi günlərdə kitab mağazalarına və endirim kampaniyalarına getmək lazımdır.

Ş.Ağayar deyir ki, kitaba xüsusi həssaslıqla yanaşmalı, işğaldan azad edilmiş ərazilərdə, respublikanın digər bölgələrində sərgilər keçirməliyik: "Ən əsası, kitab yayım şəbəkəsi modern prinsiplər üzərində daha yaxşı qurulmalıdır. Müstəqil nəşriyyatların inkişafı üçün xüsusi layihələr olmalı, ölkənin hər yerində geniş, müasir mağazalar açılmalıdır. Əvvəl ziyanla işləsə belə, bunlar yaradılmalı, müvafiq instansiyalar bu işdə maraqlı olmalıdırlar. Kitabı həyatımızda vacib komponent kimi hiss etməliyik".

O qeyd edir ki, bəzi ali təhsilli şəxslər illərlə kitab oxumur. Bu, dəhşətlidir, insan mütaliənin əhəmiyyətini anlamalıdır. Ölkə kimi də, fərd kimi də mədəni-mənəvi dirçəlişimizin tək yolu kitabdır.

Şərif Ağayar tədricən bölgələrdə də kitab sərgiləri keçirmək fikrində olduqlarını deyir. Bircə kağızın və digər vacib ləvazimatlarım qiymətində artım çox olmasın. Hər hansı böhran kitab sahəsinə çox tez təsir edir.

Müşahidələr, eyni zamanda mütəxəssis rəyləri də göstərir ki, texnologiyaların inkişafı kitab oxumağa marağı azaldır. Kitab oxumaq uşaqlıqdan aşılanmalı və böyüdükcə insanda vərdiş halına çevrilməlidir. İndi isə əksər valideynlər uşaqlarının nəinki digər ədəbiyyata, heç dərsliklərə belə həvəsləri olmadığını, onları oxumağa məcbur etdiklərini deyirlər. Bəs bu yanlış gedişat necə durdurulmalıdır? Axı kitab oxumaq özünüinkişafın, mənəvi ruhun qidasıdır. Mütaliə bir çox bacarıqları inkişaf etdirir. Bəs kitaba dəyər verməyən, oxumağa vaxt ayırmayan gənclik mənəvi qidasını nə ilə ödəyir?..

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Dünyada 153 milyon uşağın valideyni yoxdur

## Silahlı münaqişələrdən zərər çəkən ölkələrdə 1 milyarddan çox azyaşlı yaşayır

Uşaqlar üçün valideyn itkisi həyatda ən ağır faciədir. Bu kimi hallar uşağın inkişafına və onun qabiliyyətlərinin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərir, eləcə də müxtəlif psixoloji və psixiatrik problemlərin meydana çıxmasına rəvac verir.






Alimlərin fikrincə, bu, institusional mədəniyyət, erkən uşaqlıq dövründə adekvat qulluq görməyən və böyüklərlə düzgün ünsiyyətdə olmayan, üstəlik, psixoloji zədələrə məruz qalan uşaqların davranışında əks olunur. Müəyyən olunub ki, həyatının ilk üç ilini qayğı və ardıcıl qulluq şəraitində yaşamış bir uşaq doğulanda tərk edilmiş uşaqdan daha yaxşı inkişaf edir. Erkən yaşlarda uşaq evlərinə təhvil verilən körpələrin yaddaşının inkişafında da çox vaxt problemlər qeydə alınır.

### 2,7 milyondan çox uşaq internat məktəblərində, uşaq evlərində yaşayır

Bu günlərdə yayılan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) və Uşaq Fondunun (UNİCEF) məlumatına görə, dünyada körpələrdən tutmuş yeniyetmələrə qədər 153 milyon uşağın valideyni yoxdur. Bunlardan təxminən 13 milyonu hər iki valideynini itirib.

Alimlərin hesablamalarına görə, qlobal miqyasda təxminən 8 milyon uşaq valideynini və ya qəyyumunu koronavirusla əlaqəli səbəblərdən itirib. Bu, 2020-ci ilin yanvarından bu ilin mayınadək baş verib.

Eyni zamanda bu ilin may ayından payıza kimi belə uşaqların sayı daha da artıb. Dünyada 2,7 milyondan çox uşaq internat məktəbləri, uşaq evləri və oxşar müəssisələrdə yaşayır.

UNICEF-in Uşaqların Müdafiəsi üzrə Qlobal Proqramının direktoru Kornelius Uilyams bildirib ki, ailənin dağılması səbəbindən sığınacaqlara yerləşdirilən həssas uşaqlar orada sosial və emosional inkişaflarına zərərli təsir göstərən zorakılıq halları və digər risklərlə üzləşirlər.

### Hər gün 5 yaşadək təxminən 19 min uşaq ölür

Bir müddət öncə UNICEF 140 ölkədə vəziyyəti təhlil edib və məlum olub ki, 17 milyondan çox uşaq valideynlərinin QİÇS-dən ölümü nəticəsində yetim qalıb. Dünyada 7 milyondan çox uşaq yetimlər üçün nüəssisələrdə tərbiyə alır. Hər gün 5 yaşadək təxminən 19 min uşaq ölür. 22 milyon uşaq zorakılıq və ya təbii fəlakətlər səbəbindən qaçqın, yaxud məcburi köçkündür. 1 milyarddan çox uşaq silahlı münaqişələrdən zərər çəkmiş ölkələrdə yaşayır. İbtidai məktəb yaşında olan 67 milyon uşaq təhsil almır.

Araşdırmalara görə, bəzi ölkələrdə yetimlər evsizdir, həddindən artıq yoxsulluqdan əziyyət çəkir və özlərini doyura bilmirlər. Onlar elementar gigiyena vasitələrindən və dərmanlardan məhrumdurlar, lazımi tibbi yardım almırlar, tez-tez uşaq əməyi və ya cinsi istismar məqsədilə qul ticarəti və orqan alveri kimi cinayət əməllərinin qurbanına çevrilirlər.

### Hər gün 10 minə yaxın uşaq yetim və kimsəsiz qalır

"Anadolu" Agentliyi xəbər verir ki, Türkiyə 30 ölkədə yetimlərə dəstək verəcək. "Yetimlərin həmrəylik günləri" layihəsi çərçivəsində 30 ölkədə 202 təşəbbüsün həyata keçirilməsi nəzərdə tutulur.

Məlumata əsasən, Türkiyənin "İnsan Haqq və Azadlıqları" Humanitar Vəqfinin (İHH) əməkdaşları "Yetimlərin Həmrəylik Günləri" (YDG) layihəsi çərçivəsində dünyanın 30 ölkəsinə gediblər. "Böyük xeyirxahlıq" şüarı ilə reallaşacaq layihə çərçivəsində evlərin təmiri və tikintisi, istixanaların yaradılması, südlük heyvanların paylanması, sünnət mərasimlərinin təşkili, tibbi müayinə, gigiyena paketlərinin və dəftərxana ləvazimatlarının paylanması, ekskursiyalar, əyləncəli oyunlar, təqaüd yardımı, yaradıcı müsabiqələr və viktorinalar nəzərdə tutulub.

İHH baş katibi Durmuş Aydın bildirib ki, təşkilat sponsorluq əsasında 135 min yetim uşağa yardım edir. Onun dediyinə görə, kimsəsiz uşaqların həmrəylik günləri çərçivəsində tədbirlərin keçirilməsi dünyanın müxtəlif yerlərində yaşayan yetimlərə sevinc bəxş etmək, eyni zamanda onlarla sevincli anları bölüşmək məqsədi daşıyır.

Öz növbəsində, İHH-nin kimsəsiz uşaqlarla bağlı idarə heyətinin üzvü Rəşad Bəşir fondun yetimlərlə işləməyə böyük önəm verdiyini bildirib. O deyib ki, dünyada 153 milyona yaxın yetim olduğu təxmin edilir. Uşaqları dəstəkləmək üçün birlikdə daha çox iş görülməlidir.

UNICEF-in məlumatına görə, dünyada hər gün 10 minə yaxın uşaq yetim və kimsəsiz qalır. Hazırda valideyn himayəsindən məhrum olan milyonlarla uşağın təhlükəsizlik, sığınacaq, təhsil və psixoloji ehtiyaclarının qarşılanması üçün təcili köməyə ehtiyacı var.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# İrəvanda sülh gündəmi:

## Paşinyan da, keçmiş hərbi xunta da Azərbaycanın tələbləri qarşısında təslim olmağa hazırlaşırlar

İkinci Qarabağ müharibəsindən sonra sülh müqaviləsinin imzalanması Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıra bilər. Proseslər bu səpkidə inkişaf etsə, Ermənistana mühüm dividendlər qazandırar, eyni zamanda regionun dövlətlərinə böyük fayda verər.

Artıq Ermənistanda bunu etiraf edənlərin sayı çoxalmaqdadır. Çünki ölkənin yaranmış ağır sosial-iqtisadi böhrandan çıxmasının yeganə yolunun Azərbaycanla normal münasibətlər qurmasından keçdiyini artıq anlamağa başlayıblar. Elə ona görə də Azərbaycanla sülh sazişinin imzalanacağı tarixin çox yaxında olduğunu bəyan etməyə başlayıblar. Bunu Ermənistanın siyasi elitasına daxil olan siyasətçilərin son açıqlamalarına diqqət yetirməklə də müəyyənləşdirə bilərik.

Dünən Ermənistan mətbuatında belə bir xəbər yayıldı ki, Paşinyan oktyabrın 6-da əlində sülh müqaviləsi mətninin ilkin variantı ilə Praqaya gedəcək. "İravnuk" qəzeti yazır ki, sentyabrın 27-də Ağ Evdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanın təşəbbüsü ilə keçirilən görüşdə əsasən sülh müqaviləsinin layihəsinin mətni müzakirə olunub.

Məlumatda bildirilir ki, Paşinyan əlində sülh müqaviləsi mətninin ilkin variantı ilə Avropa İttifaqının qeyri-rəsmi sammitində iştirak etmək üçün oktyabrın 6-da Praqaya yola düşəcək.

Göründüyü kimi, ötən dövr çox aydın şəkildə göstərdi ki, Azərbaycanla normal münasibətlər yaratmadan Ermənistanın bir dövlət olaraq mövcudluğunu davam etdirməsi mümkün deyil. Uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini ölkəmizə yönəldib. Ermənistanın mövcud durumuna nəzər saldıqda isə tamam əks mənzərə müşahidə olunur. Bunun ümdə səbəblərindən biri 30 il davam edən işğal siyasəti, bu gün isə sülh müqaviləsinin uzadılmasının yubanmasıdır.

Aydındır ki, sülh müqaviləsinin imzalanması uzadılsa, qarşıdakı dövrdə Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Ölkəni tərk edənlərin sayı sürətlə artır. İndi görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, xaricə köçənlər durmadan artır.

Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir.

Məsələ ondadır ki, baş nazir Nikol Paşinyan Ermənistan ordusunun yenidən bərpa olunması mövzusunda pessimist mesajlar verib. O, vurğulayıb ki, bəzi ölkələr Ermənistana lazım olan silahları satmaq istəmirlər. Bu baxımdan baş nazir erməni toplumunun Ermənistan ordusuna olan ümidlərini "dəfn" edir.

Nəhayət, Ermənistanın keçmiş prezidentlərinin son açıqlamaları da rəsmi İrəvanın sülh sazişini imzalamaqdan başqa bir yolunun qalmadığını göstərir. Sabiq prezident, hərbi cinayətkar və erməni revanşizminin aparıcı qüvvəsi sayılan keçmiş hərbi xunta rəhbərlərindən biri olan Robert Koçaryan da vurğulayıb ki, ABŞ və Fransa Ermənistana dəstək verməyəcək, Rusiyanın isə hazırda belə bir imkanı yoxdur, üstəlik, Kremlin rəsmi Bakı ilə müttəfiqlik münasibətləri mövcuddur.

Göründüyü kimi, Koçaryan-Sarkisyan koalisiyası Paşinyan hakimiyyətinin devrilməsində hələ də israrlı olsalar da, Ermənistan cəmiyyətinə optimist vədlər vermək məsuliyyətinin altına girməkdən yayınmağa çalışırlar.

Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan da bu günlərdə erməni toplumuna açıq mətnlə izahat verib. O, bildirib ki, Paşinyan hakimiyyəti devrilsə belə, onu əvəz edəcək siyasi qüvvələr daha ağır şərtlər altında Azərbaycanla sülh sazişi imzalamağa məcbur olacaqlar. Ona görə də bu məsələnin uzadılması Ermənistana yalnız ziyan vura bilər.

Beləliklə, gedişat göstərir ki, rəsmi İrəvan məhz Azərbaycanın şərtləri daxilində sülh sazişini imzalamalı olacaq. Faktiki olaraq məğlub ölkədə yaranmış iqtisadi böhran, siyasi ziddiyyətlər, həmçinin işsizlik, baş alıb gedən korrupsiya halları, yoxsulluq səviyyəsi bu ölkəni sürətlə çökdürür. Gec də olsa anlamağa başlayıblar ki, istər köhnə, istərsə də yeni hakimiyyətin tutduğu məntiqsiz, ədalətsiz və reallıqdan uzaq siyasətinə görədir ki, ölkənin qonşu dövlətlərlə, xüsusilə Azərbaycan və Türkiyə ilə münasibətlərinin yaxşılaşdırılmasında heç bir irəliləyiş hiss olunmur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

# Maraq ifadə etməyə dəvət

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi (BMT QAK) məcburi köçkünlərə yönəlik üç (3) əsas sahədə layihələr hazırlamaq üçün ölkədəki potensial QHT tərəfdaşlarını müəyyən etməkdə maraqlıdır. Maraqlanan təşkilatlar aşağıdakı üç sahədən biri üçün konseptual təklif təqdim etməlidirlər:

- **Gender bərabərliyinə və bu sahədə imkanların artırılmasına dəstək;**
- **İcma səfərbərliyinə dəstək;**
- **Partlayıcı vasitələrin riskləri ilə bağlı maarifləndirmə üçün məlumatlılıq səviyyəsinin artırılmasına dəstək.**

Birdən artıq sahə ilə maraqlanan QHT-lər ayrı-ayrı konseptual təkliflər təqdim etməlidirlər. Konseptual təklifinizin tələblərə uyğunluğu və necə təqdim edəcəyinizlə bağlı təfərrüatlar "Maraq ifadə etməyə dəvətlərin" hər birində ayrıca təsvir edilmişdir.

Ətraflı məlumat üçün lütfən bu sayta daxil olun:
**https://azerbaijan.un.org/en/200617-calls-expression-interest.**

Konseptual təklif digər təsdiqedici sənədlərlə birlikdə **cümə günü, 28 oktyabr 2022-ci il tarixdə, Bakı vaxtı ilə saat 17:00-a** qədər təqdim edilməlidir.



UNHCR
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

# Calls for Expression of Interest

The Office of the United Nations High Commissioner for Refugees in Azerbaijan (UNHCR) is interested to identify potential NGO partners in the country to developed projects in three (3) key areas targeting internally displaced persons (IDPs). The interested organizations should submit a Concept note for one of the three areas:

- **Support to Gender equality and empowerment.**
- **Support for Community mobilization.**
- **Support for awareness raising for Explosive Ordinance Risk Education (EORE).**

NGOs interested in more than area need to submit separate Concept notes. Details on eligibility and how to submit your Concept note are described in each *Call for Expression of Interest* separately.

For details please visit **https://azerbaijan.un.org/en/200617-calls-expression-interest** website.

Concept note along with the other supporting documents should be submitted by **Friday, 28 October 2022 at 17:00 hours** Baku time.



# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binaları üçün müxtəlif tipli kondisionerlərin və mərkəzi soyutma-isitmə tipli (VRV və ya VRF) sistemin təchizatı və quraşdırılması işlərinin satın alınması üzrə tender Satınalmalar komissiyasının 28 sentyabr 2022-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***


# Bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var

Azərbaycanda sentyabrın 30-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 18-20°, gündüz 24-27° isti, Bakıda gecə 18-20°, gündüz 25-27° isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 28-33° isti, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacağı ehtimal edilir.

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri Şakir Şabanova əzizi

**TEYMUR TEYMUROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları Nailə və Elşən Əsgərovlara əzizləri

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri Şakir Şabanova əzizi

**TEYMUR TEYMUROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi, üzvləri və katibliyin əməkdaşları 37 saylı Nizami birinci (Gəncə) seçki dairəsi dairə seçki komissiyasının sədri

**SEYMUR HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Azərbaycan Respublikası baş prokurorunun müavini, Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyevə əzizi

**ESMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6563**
**Sifariş 2727**
**Qiyməti 40 qəpik**